




# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

## Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

Heydər Əlirza oğlu Əliyev



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



"LETS"
rəqs məktəbi



professional rəqslərin öyrədilməsi

EMİN QURBANGİL

Əlaqə tel: 055-776-07-07, 012-408-10-33
Ünvan: 28 may küç 7








# USTA
# "ƏN BÖYÜK USTA YARADANDIR"



**"Sərvətlə bilik bir yerdə olmur"**

Fakültədə ilk dərsə girəcəkdim. Buna görə də yeni aldığım kostyumu geyinmiş, eynirəngli çantamı götürüb evdən çıxmışdım.Maşınımı qoyduğum dayanacağa tərəf gedəndə birdən özümü saxlaya bilməyib yıxıldım. Görünür, çox fikirli olduğum üçün yolumun üstündəki dəmir parçasını görməmişdim. Şalvarımın bir dizi cırılmış, sol ovcum isə zibil qutusuna dəyərək yaralanmışdı. Özümü yığışdırıb tez ayağa qalxdım və şalvarımın cırığını çantamla örtərək evə qayıtdım...

Sonra cırılan şalvarımı bir dərziyə apardım. Dərzi şalvara baxana qədər başıma gələnləri danışdım və sözarası ovcumdakı yaranı göstərdim. Dərzi yaşlı bir adam idi. Gözlüyünü taxaraq, əvvəlcə, əlimdəki yaraya, sonra da şalvarıma baxdı. Diqqətlə göz gəzdirdikdən sonra:

- Şənbə günü gələrsən! - dedi.

Ancaq işlərim çox olduğu üçün dərzinin yanına bir aydan sonra gedə bildim. Şalvarımı təmir edib, rəfin ən yuxarı gözündən mənə verəndən sonra:

- Çox qəribə parça idi. Hörmək o qədər də asan olmadı. Borcunuzu kağızda yazmışam, - dedi.

Parçanın üstündəki kağıza baxanda qeyri-ixtiyari:

- Bu, bir qədər çox deyilmi? - deyə soruşdum, - üstəlik, hördüyünüz yerlər də bilinir.

Görünür, dərzini hövsələdən çıxarmışdım. Gözlüyünü çıxararaq:

- Oğlum, - dedi, - qırx ildir ki, bu işlə məşğulam. Əgər bu ətrafda məndən yaxşı bir sənətkar tapa bilsən, səndən bir qəpik də almayacağam.

Yaşlı adamı daha çox hövsələdən çıxarmamaq üçün susmağı üstün tutdum və pulu çıxarmaq üçün əlimi cibimə atdım. Pullar əlimə dəyən kimi sanki beynimdə bir şimşək çaxdı. Az qala qışqıra-qışqıra:

- Tapdım! Dediyiniz o sənətkarı tapdım, - dedim.

Sonra da əlimi ona uzadaraq:

- Bax, - dedim, - həmin gün bu şalvarla bir yerdə əlimi də yaralamışdım. İndi o yaradan əsər - əlamət də yoxdur!...

Yaşlı adam heyrət dolu gözlərlə əlimə baxdı. Bir anlığa dodaqlarının titrədiyini, gözlərinin dolduğunu hiss etdim. Kövrək bir səslə:

- Haqlısan, oğlum, - dedi, - çox haqlısan. Ömrümü bu işə həsr etdyim halda, necə olur ki, o Ustanı unutdum?..

Yaşlı dərzini pul almaq üçün güclə razı sala bildim.Artıq onun yanına tez-tez gedir, hal-əhval tuturdum. O da hər dəfə məni gülərüzlə qarşılayır və "qırx il sonra şagird oldum" deyirdi...

# Ağayev Afiq

## "Ömrünün 40 ilini pedaqoji fəaliyyətə həsr edən qabaqcıl təhsil işçisi"





**"Müəllim sözü müqəddəs deyil, müqəddəs olan müəllimlikdir"**

Elm, savad yolunda bizə işıq tutan,düzgün yolu göstərən məhz müəllimlərdir. Müəllim - ilk növbədə insandır, bilikli, savadlı, tərbiyəli, uşaqları və peşəsini sevəndir, uşaqları, gəncləri xalqın, vətənin gələcəyi üçün hazırlayan vətənpərvərdir, vətəndaşdır, ictimai xadimdir. Mustafa Kamal Atatürkün dediyi kimi "Müəllim şam kimidir, özü yanıb tükənərkən ətrafını işıqlandırır". Şagirdlərə ilk hərfi yazmağı öyrədən, qələm tutduran gözəl simalı müəllimlərin əziyyəti bizim üçün çox dəyərli və unudulmazdır.Müəllim peşəsi ən şərəfli və ən çətin peşədir. Bu peşəni seçərkən onun ağırlığını, məsuliyyətini və peşə xüsusiyyətlərinin çətinliyini nəzərə almaq lazımdır. Pedaqoji sahədə çalışan hər bir müəllim xüsusi peşə qabiliyyətlərinə malik olmalıdır ki, bunların da sırasında didaktik qabiliyyət, ünsiyyət, təşkilatçılıq, yaradıcılıq və emosianal qabiliyyətlər mühim yer tutur. Müəllim ilk öncə akademik savada malik olmalıdır. Çünki müəllimlər cəmiyyətin inkişafına töhfəsini verən şərəfli peşə təmsilçiləridir. Elə buna görə də dünyada müəllim əməyinin bənzəri yoxdur. Əgər bu gün biz bəşəriyyətin çatdığı yüksək inkişaf səviyyəsi, elmi-texniki nailiyyətlər barədə məmnunluqla söhbət açırıqsa, buna görə ilk növbədə müəllimlərə minnətdar olmalıyıq. Şərəfli və işini sevərək icra edən müəllimlərdən biri də Ağayev Afiq müəllimdir. Onun keçdiyi şərəfli ömür yoluna jurnalın bu yazısında nəzər yetirdik.

Ağayev Afiq Abdulxalıq oğlu 1962-ci il oktyabr ayının 25-i Gədəbəy rayonun Qaramurad kəndində sadə və zəhmətkeş bir ailədə anadan olub. Atası Ağayev Abdulxalıq Əsgəralı oğlu 1938-ci ildə anadan olub, zamanında sürücü işləyib. Hazırda isə təqaüdçüdür. Anası Abdullayeva Zəhrə Mirismayıl qızı 1938-ci ildə anadan olub,evdar qadındır.

Afiq müəllim təhsil həyatına 1969-cu il Gədəbəy rayon Qaramurad kənd M.Füzuli adına kənd tam orta məktəbində başlayıb və 1979-cu ildə həmin məktəbdən məzun olub.

Elə həmin ildən etibarən Sabirabad rayon Zəngənə kənd orta məktəbində PBDR kimi pedaqoji fəaliyyətə başlayan Afiq müəllim 1980-ci ildə ADPU-in tarix fakültəsinin qiyabi şöbəsinə daxil olaraq təshilini davam etdirib. 1981-ci və 1983-cü illərdə isə Sovet Ordusu sıralarında hərbi xidmətdə olaraq vətənə olan borcunu şərəflə yerinə yetirib. Afiq müəllim 1983-1984-cü illərdə isə Sabirabad rayon Zəngənə kənd orta məktəbində katib vəzifəsində işləməyə başlayıb.1985-ci ildən etibarən isə həmin kənd məktəbində Tarix müəllimi kimi fəaliyyətə göstərib. 1987-ci ildə Ali təhsilini fərqlənmə diplomu ilə bitirən Afiq müəllim,1990-cı ildən etibarən indiyə qədər Sabirabad rayon Hacı Zeynalabdin Tağıyev adına 6 saylı orta məktəbində fəaliyyətini uğurla davam etdirir. Pedoqoji fəaliyyəti zamanı Afiq müəllim təhsili müddətində təhsil verdiyi şagirdlərinə, yetirmələrinə savadı və zəhməti ilə örnək olmuş və bu müsbət keyfiyyəti zaman- zaman şagirdləri də özü üçün əsas həyat prinsipinə çeviriblər. Afiq müəllim dərs dediyi şagirdlərin olduqca savadlı və məsuliyyətli olduğunu əlavə edib. O, deyir ki, şagirdlərinin uğuru onu hər zaman sevindirir. Peşəsinə sidq ürəklə bağlanan bir müəllim üçün bundan yaxşı nə ola bilər?!.

Afiq müəllim savadlı və peşəsini sevən bir pedaqoq olmaqla yanaşı onun gözəl ailəsi və 3 övladı var. Həyat yoldaşı Azayeva Südabə Rəşid qızı 1961-ci ildə anadan olub, evdar qadındır. Qızı Ağayeva Xaliqə Afiq qızı 1987-ci ildə anadan olub, Azərbaycan Beynəlxalq Universtetində tibbi biologiya fakultəsini bitirib. Hazırda aptekdə işləyir, Oğlu Ağazadə Əvəz Afiq oğlu 1995-ci ildə anadan olub, Azərbaycan Dövlət Pedaqoji Universitetin pisxologiya fakultəsin bitirib, hazırda Sabirabad şəhər 7 saylı tam orta məktəbin pisixoloqu kimi çalışır. Digər qız övladı Ağazadə Xalidə Afiq qızı 1996-cı ildə anadan olub,orta təhsilli, ailəlidir.

Müəllimlik fəaliyyəti zamanı bu savadlı pedaqoq, dəfələrlə RTŞ-in və RİHB-in fəxri fərmanları ilə, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 2008-ci il 2 okytabr tarixli sərancamına əsasən "AR-ın Qabaqcıl"təhsil işcisi nişanəsi ilə təltif olunmuşdur. Bununla yanaşı o, Azərbaycan Respublikasının 2009-cu il 30 sentyabr tarixli 505 nömrəli sərancamına əsasən "Azərbaycan Respublikasının Tərəqqi"medalına layiq görülmüşdür.

Sonda "Çağdaş Təhsil" jurnalı adından Afiq Ağayevə müəllimlik fəaliyyəti zamanı bol nailiyyət diləyir, şagirdlərinin bu yolda daim uğur toplayaraq onu fərəhləndiməsini arzu edirik. Uğurlu və savadlı yetirmələriniz bol olsun Afiq müəllim!





# Bir ziyalı ömrünün tarixçəsi



**"Qəlbində poeziya, düşüncəsində riyaziyyat ruhunda əzmkarlıq, özü də vətən nisgilli "**

**Hüsnünüzdə cəm olub əzəmət, vüqar,**
**Mən Sizə vüqarlı bir dağmı deyim?!**
**Ürəyiniz bir bulaqtək çağlayıb daşar,**
**Mən Sizə çağlayan bulaqmı deyim?!**

Bəli, bu şeir parçasında vurğulandığı kimi bir insandan - qəzetimizin və eyniadlı jurnalımızın baş redaktoru, əsl ziyalı, Respublika Riyaziyyat Assosiasiyasının üzvü, riyaziyyatçı pedaqoq, istedadlı şair, vətənpərvər mətbuat işçisi, bir neçə kitab müəllifi, qayğıkeş ata, nəhayət, sevimli baba - İsa Cəlal oğlu Əkbərovdan söhbət açacağıq. Çox təəssüf hissi ilə qeyd edirik ki, əslən Kəlbəcərdən olan İsa müəllim ömrünün 63-cü ilini də Kəlbəcərsiz qarşıladı...

Dağların əlçatmazlığında qərar tutan, buz kimi bulaqları, tər-təmiz havası olan, torpağının üstü kimi altı da zəngin, sazlı-sözlü Kəlbəcərimiz 1993-cü ildən mənfur düşmənlərimizin tapdağı altındadır.

**Çəkəmmədik Kəlbəcərin nazını,**
**Çalammadıq Dədə Şəmşir sazını.**

İsa müəllim kəlbəcərlilik obrazını xarakterində qorumaq bacarığı və məharəti olan bir şəxsiyyətdir. Onun həyat bioqrafiyasına qısa ekskurs edək:

İsa Cəlal oğlu Əkbərov 1 may 1956-cı ildə Kəlbəcər rayonunun Mozqarçanlı kəndində anadan olmuş, I - IV sinifləri doğma kənddə, V - VIII sinifləri Abdullauşağı kənd orta məktəbində və IX - X sinifləri isə Zülfüqarlı kənd orta məktəbində oxumuşdur.

Oxuduğu illər ərzində bədii ədəbiyyat, şeirə, musiqiyə olan marağı ilə bərabər, riyaziyyat elminə də çox marağı olmuş, VI - VIII siniflərdə riyaziyyat olimpiadasının iştirakçısı olmuşdur. Sadə və mürəkkəb hesablamalar aparmaqda, xüsusi məntiqi düşüncəyə malik olmaqda, imtahan materiallarını tez və dəqiq həll etməkdə digər sinif yoldaşlarından fərqlənmişdir.

İsa müəllim 1973 - 1977 illər arasında GDU - riyaziyyat fakültəsini bitirməklə ali təhsil almışdır. Təyinatla öz rayonunda müəllimlik fəaliyyətinə başlamışdır. O, 1977 - 1982-ci illər arasında Abdullauşağı kənd orta məktəbində riyaziyyat müəllimi və müavin işləmiş, 1982 - 1993-cü illərdə Yevlax rayonu Kövər kənd orta məktəbində riyaziyyat-informatika müəllimi və müavin işləmiş, 1993 - 2003-cü illər tarixində Yevlax Şəhər Təhsil Şöbəsində metodist və 2003 - 2012-ci illər tarixində isə Azərbaycan Müəllimlər İnstitutunda kabinə müdiri və Riyaziyyat kafedrasında müəllim işləmişdir.

İşlədiyi illər ərzində dövrü mətbuatda metodiki, elmi məqalələrlə çıxış etmiş, respublika Riyaziyyat Assosiasiyasının üzvü, "Maraq və məntiq" verilişinin əlaqələndiricisi olmuş, riyaziyyat və informatikaya aid olan seminarların iştirakçısı sertifikatları almış, bir neçə orta məktəbə aid əlavə elmi kitabların və şeir kitabının müəllifidir.

Hal-hazırda öz elmi biliyini şagirdlərə sərf edən İsa müəllim "Təhsil yenilikləri" qəzetinin baş redaktoru işləməklə bərabər, orta məktəb şagirdləri və müəllimlərinə kömək məqsədilə riyaziyyata aid müxtəlif siniflər üçün testlər toplusunun nəşrinə nail olmuşdur.

Yaradıcılığa meyili olan riyaziyyatçı İsa müəllim ədəbiyyat aləmində xeyli vaxtdır ki, fəaliyyət göstərir. Qələmindən süzülən misralar "Kök altına" düşərək şeirə çevrilir. Bu şerlərdə vətənə sevgi, insanlığa qayğı, torpağa bağlılıq motivləri əsas ana xətt təşkil edir.

Eyni zamanda İsa müəllimin poeziya yaradıcılığında dərin fəlsəfi düşüncələr, cəmiyyətdəki çatışmazlıqlar, insan xarakterindəki neqativ xüsusiyyətlər diqqət çəkir. Bu mənada şairin "Hərdən" şeiri xüsusilə maraqlıdır. İnsan həyatını şahmata bənzədən İsa Əkbərov şeirin bir bəndini belə qələmə alıb:

**Əsl "piyada" ol ki, "vəzir" olasan,**
**Güclü "top" ol ki, barıtla dolasan.**
**Düzgün "zabit" ol ki, "şah"la qalasan,**
**Yaltaq "vəzir" ikiqat olar hərdən.**

İsa müəllim riyaziyyat elminin gərəkliyi barədə fikirlərini belə ifadə edir: "Elmin, dilin inkişaf etdiyi müasir zamanda orta məktəb dərsliklərində sadə hesablamalar, maraqlı faktlar, sirli rəqəmlər, əyləncəli məsələlər, görkəmli alimlər haqqında məlumatlar olsa, yaxşı olardı. Ona görə bu səpkidə ədəbiyyatların yığılıb toplanması, orta məktəb şagird və müəllimlərinə çatdırılması mühüm işimizə çevrilməli, testlərə bu kimi faktların daxil edilməsi biliyin zənginləşdirilməsinə xidmət olardı"

Elmə, ədəbiyyata sadiq İsa müəllim oxucu auditoriyasını daha da genişləndirib. Belə ki, istedadlı qələm sahibi "Təhsil yenilikləri" adlı qəzetin və eyniadlı jurnalın təsisçisi və baş redaktorudur. Öz qəzet və jurnalında respublikanın müxtəlif orta təhsil ocaqlarında təhsil alan savadlı, əlaçı, istedadlı şagirdləri və eləcə də müəllim və ziyalıları işıqlandırır, onları geniş oxucu audiotoriyasına tanıdır. Öz işini sevən bir el ziyalısı kimi vətənə layiqli övladların yetişməsini ürəkdən azrulayır, hər zaman şagird və tələbələrinə zəhməti, ağac kimi bar verəndə səmimi olmağı, "əlçatanlığı" təbliğ edir.

**Ağac bar verəndə bağban sevinər,**
**Barlı budaqların yığın-yığındı.**
**Ağac bar verəndə başını əyər,**
**Torpağa əyilmək ucalmağındı.**

Ömrün 63-cü ilinə qədər bu həyatın həm xoş, həm də çətin günlərini yaşadınız. Əziyyətiniz, zəhmətiniz sayəsində ucaldınız, illərin iş və həyat təcrübəsini qazandınız. Amma bu illər ərzində qəlbinizdə vətən sevgisi, insanlıq qayğısı, zəhmətə sayğı azalmadı, əksinə artı, zənginləşdi.

İsa müəllim həm də gözəl ailə başçısı, qayğıkeş ata, sevimli babadır. Onun iki övladı, 5 nəvəsi var. Bu gün də övladları, nəvələri, ömür gün yoldaşı və tələbələri üçün də sevimli bir şəxsiyyət kimi qəlblərdə özünəməxsus yer tutur. Övladları, ailəsi ilə birgə xoşbəxt olan İsa müəllimin yalnız bir dərdi var, o da vətən dərdi..anadan ayrı, yurdan ayrı qalmaq eyni çəkilməz ağrıdır. Bəlkə də ikinci daha ağırdır.

..63 yaşınızı yurd həsrəti ilə qarşıladınız, İsa müəllim, fikir etməyin. Növbəti yaşlarınızı, yubileylərinizi saxlamışıq Kəlbəcərdə, Dəlidağda üçrəngli bayrağımızın dalğalanacağı günə. Zirvələşən ömrünüzə o kəhkəşandan boylanmağınızı arzu edirəm. O gün olsun ki, sizi öz doğma yurdunuzda salamlayaq, öz doğma yurdunuzda növbəti yubileylərinizi qeyd edək!

**Ömrün zirvəsinə, ay İsa müəllim,**
**Kaş, o dağlarda çata biləydik.**
**Dərib dağ çiçəyin biz qucaq-qucaq,**
**Çəməni çiçəyə qata biləydik,**
**Yubileyinizə dağlarda çata biləydik!**

# Almәmmәdov Tural

## "Musiqi duyumu yüksәk olan alaçı mәktәbli"





**"Ağıllı o adamdır ki,başqalarının müdrikliyindәn vә tәcrübәsindәn öyrәnir"**

***(X.Manuel)***

Tәhsilin inkişafı yüksәk sәviyyәli infrastruktur, tәdris vәsaiti, maliyyә imkanları olsa da, tәcrübәli müәllimdәn daha çox asılıdır.

Gәlәcәyimizin hәrtәrәfli inkişafı naminә elmin, tәhsilin bünövrәsi ilk gündәn düzgün qoyulmalı, doğru istiqamәtlәndirilmәlidir. Heç şübhәsiz ki, bu işdә müәllim әmәyi, müәllim mәsuliyyәti böyükdür. Çünki әsl pedaqoq sağlam cәmiyyәtin qurulmasında önәmli rola malik şәxsiyyәtdir. Ona görә dә müәllimә, mәktәbә hәmişә borcluyuq. Tәhsilә vә müәllim әmәyinә göstәrilәn böyük diqqәt әslindә cәmiyyәt üçün hәrtәrәfli, intellektual dünyagörüşlü yeni nәslin yetişdirilmәsinә xidmәt edir.

Bәli, tәhsilin inkişafı yüksәk sәviyyәli infrastruktur, tәdris vәsaiti, maliyyә imkanları olsa da, tәcrübәli müәllimdәn daha çox asılıdır.

Almәmmәdov Tural Әdalәt oğlu 23 iyul 2005-ci ildә Sabirabad rayonunda anadan olub. 2011-ci ildә tәhsilә ilk addımlarını atan Tural,elә hәmin il Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta mәktәbdә tәhsil almağa başlayıb.Tural indi bu mәktәbin 8b sinif şagirdlәrindәn biridir.O,olduqca çalışqan vә ağıllı bir şagirddir.Tural ona tәdris edilәn fәnlәri arasında әn çox Tarix fәnnini çox sevdiyini deyir. O,müәllimlәrinin daim ona dәstәk durduğunu әlavә edib. Hәmçinin o, bütün müәllimlәrini çox sevdiyini bizlәrlә bölüşdü. Bununla yanaşı onun musiqiyә hәvәsi böyükdür. O,musiqi mәktәbi tәrәfindәn "Fәxri Fәrman-"a layiq görülüb. Bu istedadlı şagirdin, gәlәcәyinә dair әn böyük arzusu polis olmaqdır. Azәrbaycan Respublikasında polisin tәyinatı insanların hәyatını, sağlamlığını, hüquq vә azadlıqlarını, dövlәtin, fiziki vә hüquqi şәxslәrin qanuni mәnafelәrini vә mülkiyyәtini hüquqa zidd әmәllәrdәn qorumaqdan ibarәtdir.Tural da әmindir ki, böyüdüyü zaman bu vәzifәni layiqincә yerinә yetirәcәk.

Boş zamanlarında Tural ev tapşırıqlarını hәll etdiyini vә



dәrslәrini oxuduğunu deyir. Onun üçün hәr zaman tәkrar biliyin anasıdır.

Bu mehriban ailә 7 nәfәrdәn ibarәtdir. Atası Әdalәt Almәmmәdov 1962-ci ildә 6 dekabr tarixindә anadan olub. Anası Sәdaqәt Mәmmәdova 1968- ildә yanvarın 1-i anadan olub, evdar qadındır. Hәr iki valideyn bütün övladlarının elәcә dә sonbeşiklәri olan Turalın da qayğısına qalır vә onun sağlam, xoşbәxt vә taleyinin uğurlu olması üçün çalışırlar.

Turalın iki qardaşı vә iki bacısı var. Almәmmәdov Ruslan Әdalәt oğlu 1986-cı il anadan olub,polis işlәyir. Almәmmәdov Orxan Әdalәt oğlu 1990-cı il anadan olub,ailәlidir. Bacıları,Lәtafәt 1985-ci il vә Aynurә1989-cu il anadan olub,ailәlidir. Hamısı Turaldan böyük olduğu üçün daim Turalın qayğısına qalır, onun dәrslәri ilә maraqlanırlar.

Biz dә öz adımızdan bu istedadlı balaya böyüdüyü zaman gәrcәklәşdirmәk istәdiyi bütün arzularını hәyata keçirmәyini arzu edir vә xoşbәxt bir talenin sahibi olmağını dilәyirik.



# Orucova Aysun

## "Gәlәcәyin zәhmәtkeş vә mәsuliyyәtli hәkimi olmaq istәyәn alaçı şagirdi"





**"Elmdә irәli gedib mәnәviyyatda geridә qalan insan son nәticәdә irәli yox, geriyә gedir"**

***(Aristotel)***

Elm inkişaf edir. Elm bütün qapıların açarıdır. Elmsiz insan meyvәsiz ağaca bәnzәyir. Hәr bir kәs savadlı әmәyi ilә cәmiyyәtin vә vәtәninin inkşafında öz töfhәsini bәxş etmәlidir. Әmәk insan hәyatının ayrılmaz hissәsidir. Bacarıqlı әllәr, tәcrübә vә inam olmadan işә başlamaq mümkün deyil. Buna görә dә bizim bugünkü işimiz yaxşı oxumaqdır. Bu iş, vәtәnin çiçәklәnmәsi yolunda bәxş edә bilәcәyimiz kiçik bir zәrrәdir. Lakin hәr bir şagirdin bәxş etdiyi balaca bir zәrrә, o biri zәrrә ilә birlәşir vә nәhayәt, böyük bir dәnizә çevrilir. Atalar demişkәn: " Dama-dama göl olar". Hәmsöhbәtimiz Aysun da hәmin elm dәryasının zәrrәsindә payı olan şagirdlәrdәndir.

Orucova Aysun Tәyyar qızı 7 sentyabr 2007-ci ildә Sabirabad rayonunun Zal Qarağac kәndindә sadә, zәhmәtkeş bir ailәdә dünyaya göz açıb. O, 2014-cü ildә Ağaşirin Mikayılov adına 6 saylı tam orta mәktәbin 1-ci sinfinә getmәklә öz uşaqlıq arzusunu reallaşdırıb. Hazırda hәmin mәktәbin 5-ci sinif şagirdidir. Rahil dәrslәrini yaxşı oxuyan vә bütün müәllim vә dәrslәrinә eyni münasibәt bәslәyәn bir şagirddir. Ancaq onun әn sevimli müәllimlәri Aybәniz, Ceyran adlı müәllimlәridir- ,әn çox sevdiyi fәnn isә riyaziyyat dәrsidir. Gәlәcәkdә әn böyük istәyi hәkim olmaqdır. Bunun üçün orta mәktәbi yüksәk sәviyyәdә oxuyub ali tәhsil almaq fikrinә düşәn Aysun hәmin tәshilinin tibb sahәsi üzrә olmasını planlaşdırır. Әlaçı vә mәsuliyyәtli olan Aysu öz istәyinә çatmaq üçün hәvәslә dәrslәrini yaxşı oxuyur, mәktәb nәzdindә tәşkil olunan bilik, sınaq imtahanlarında aktiv iştirak edir. Hәtta boş vaxtlarını belә dәrs oxumaqla keçirmәyi sevir. Hәrdәn maraqlı әl qabiliyyәti olduğundan rәsmlәr dә çәkir, öz yaradıcılıq qabiliyyәtini nümayiş etdirir. Aysunun әn böyük uğuru bu ilki tәdris ilindә Şirvan şәhәrindә keçirilәn sınaq imtahanından 256 bal yığıb sinif birincisi olmaqla "Tәrifnamә" alması olub.

Aysunun ailәsi 4 nәfәrdәn ibarәtdir. Atası Orucov Tәyyar Valeh oğlu 1984-cü il yanvarın 25-dә Sabirabadın Minbaşı kәndindә anadan olub, orta tәhsillidir, yol tәmiri sahәsindә iş icraçısı olaraq çalışır. Anası Baxşәliyeva Gülnar Şarәffәtdin qızı 1987-ci il yanvarın 31-dә anadan olub, orta tәhsilli evdar qadındır. Hәr iki valideynin arzusu övladlarının xoşbәxt vә sağlam bir ömrә sahib olmalarıdır. Hәr iki valideynin arzusudur ki, övladları ali tәhsilli cәmiyyәtә yararlı kadr olsun, şәxsiyyәt kimi yetişsinlәr. Qardaşı isә Orucova Sübhan Tәyyar oğlu isә 2011-ci il iyulun 6-da anadan olub, 2-ci sinifdә oxuyur. Bacısı onun dәrslәri ilә mәşğul olur vә xüsusilә dә riyaziyyatı yaxşı mәnimsәmәdә bacısına bәnzәyir.

Redaksiyamız adında Aysunu tәbrik edir. Ona gәlәcәk hәyatında uğurlar arzulayırıq. Hәr zaman ata ananın fәxri olasan. Bilik vә elm daimi yol yol-

# Anar Ağayev

## "Gələcəyin peşəkar idmançısı"




**"Yaxşı kitab müəllifin bəşər nəslinə hədiyyəsidir"**

***Ç.Aytmatov***

Ölkəmizin elmini gənclər inkişaf etdirəcək. Zaman keçdikcə bu gənclərin arasından həkim, polis, müəllim, idmançı, sənətkar ruhlu gənclər yetişəcək. Əvvəlki görkəmli alimlərimiz kimi onlar da öz xalqına töhfəsini verəcəkdir.Təhsil strategiyasının uğurlu tətbiqi vətəndaş məsuliyyətini də artırır. Azərbaycanda təhsilin yenilikçi, çevik və elmi inkişafının mümkünləşməsi yalnız bu amillə mümkündür. Respublikamızda təhsil ocaqlarında aparılan əsaslı təmir və yenidənqurma işləri, hər cür lazımi şəraitin təmin olunması dövlətin təhsilə verdiyi önəmin bariz göstəricisidir. Bu gün hər bir təhsil alan vətəndaş təhsilinin uğurları, dövlət üçün əhəmiyyəti haqqında düşünməlidir. Unutmaq olmaz ki, düzgün təhsil siyasətinin bərqərar olması yalnız dövlətin istəyi və iradəsi ilə həyata keçirilə bilməz. Bu, dövlət-vətəndaş birliyini, həmrəyliyini və









# Abdullayeva Fidan

## "Gələcəyini müəllim sənətində görən əlaçı şagird"





**"Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər"**

**(Volter)**

Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən asılı olmayaraq bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər bir insan hansı yaşda olursa olsun, yiyələndiyi peşədən asılı olmayaraq ilk növbədə, onu bu səviyyəyə çatdırmış olan müəllimə borclu olmalıdır. Müəllim hər kəs üçün valideyndən sonra yeganə insandır ki, istər şagird, istərsə də tələbəlik dövründə narahat olan, qeydinə qalan və hər zaman dəstəkləyərək elmin zirvələrində olmağı arzu edir. Bu səbəbdən bütün uşaqların böyük əksəriyyətinin ən birinci arzuladıqları peşə müəllim olmaqdır. Bu arzunun sahiblərinin biri haqqında bu yazıda məlumat veririk. Bu şərəfli arzunun sahibi Fidan Abdullayevadır. Gəlin, Fidan ilə daha yaxından tanış olaq.

Abdullayeva Fidan Namik qızı 2005-ci ilin avqustun 14-də Sabirabad rayonunun Çöl-Beşdəli kəndində anadan olub. O, 2011-ci ildə Sabirabad rayon Ağaşirin Mikayılov adına Zal Qarağac kənd tam orta məktəbin 1-ci sinfinə gedib. Hazırda həmin məktəbin 8-ci sinifində təhsil alır. Fidanın ən çox sevərək oxuduğu fənlər riyaziyyat, azərbaycan dili, ingilis dili, tarix, biologiya, coğrafiya, fizika fənləridir ki, bunlara qarşı onun marağı daha çoxdur. Ceyran , Raya , Fəcrəddin, Mürvət, Zəfər, Gülvari, Qədriyyə adlı müəllimləri isə onun sevimli müəllimləri sırasındadır. Gələcəkdəki ən böyük istəyi azərbaycan dili və ədəbiyyat müəllimi olmaqdır. Fidan balamız riyaziyyat fənni üzrə keçirilən bilik yarışlarında iştirak edərək "Fəxri Fərman" qazanan şagirdlərdəndir. O, bu şərəfli adı qazanmaqla yanaşı "Zirvə"kursunun bu il təşkil etdiyi bilik yarışmasında iştirak etməklə 7-yeri tutub. Fidan boş vaxtlarında valideynlərinə kömək etməklə yanaşı, maraqlı bədii kitablar oxuyur, dünyagörüşünü artırır.

Fidanın ailəsi 4 nəfərdən ibarətdir. Atası Abdullayev Namik Becan oğlu 1969-cu il avqustun 30-da anadan olub, orta təhsilli, sürücüdür. Anası Abdullayeva Simuzər Əsgər qızı 1978-ci il mayın 7-də anadan olub, orta təhsilli, evdar xanımdır. Hər iki valideynin istəyi övladlarının taleyinin parlaq və xoşbəxt olmasıdır ki, istəyirlər onların hər ikisi cəmiyyətin sayılıb seçilən şəxsiyyətlərindən olsun. Qardaşı Abdullayev Mirhüseyn Namiq oğlu 1998-ci il avqustun 14-də anadan olub, hazırda Texniki Universitetdə 4-cü kurs tələbədir. Fidan da qarşısına məqsəd qoyub ki, qardaşı kimi ali təhsil almalı və savadlı bir şəxsiyyət olmalıdır.

Redaksiyamız adından Fidanı təbrik edir ona dərslərində uğurlar arzulayırıq. O gün olsun ki, orta məktəbi uğurla bitirib yüksək balla müəllim ixtisasına daxil olaraq cəmiyyətin faydalı bir üzvü kimi yetişsin. Uğurların bol, həyatın şanslı olsun!


Sabirabad rayonu Zalqarağac kənd tam orta məktəb

FƏXRİ FƏRMAN

Sabirabad rayonu Zalqarağac kənd tam orta məktəbində 2019-cu ilin 14 fevral tarixində V,VI,VII,VIII sinif şagirdləri arasında Riyaziyyat fənni üzrə keçirilən bilik yarışında

Fəal iştirak etdiyinə görə

Abdullayeva Fidan Namik qızı

TƏLTİF EDİLİR

Sabirabad rayonu Zalqarağac kənd tam orta məktəbin direktoru: Ə.Mustafayev

Məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini: M.Abdullayev

Məktəbin riyaziyyat müəllimi: C.Əliyev

# Nərimanlı Nuray

## "Məktəbin faal və ağıllı şagirdi"







**"Elm dünyanı öyrənməyə kömək edir, amma yaxşı yaşaya bilmək ayrı hikmətdir"**
**(Jan de Labrüyer)**

Zəkanın özü də elmin inkişafına bağlıdır. Zəkalı, elmi insanların çoxluq təşkil etdiyi cəmiyyətdə heç vaxt ziddiyyətlər yaranmır, keskinləşmir, inqilaba, üsyana və kəskin qiyamlara çevrilmir. Mədəni səviyyəsi yüksək olan zəkalı insanları heç bir kənar qüvvə yoldan çıxarda bilməz. Ağıllı adamların çox olduğu ölkəni ədalətsiz qərarlarla ram və istismar etmək çətin olur. Amma savadlı, təhsilli, elmli cəmiyyəti zülm və səfalət təsiri altında saxlamağa ehtiyac da olmur. Çünki onlar cəmiyyəti və dövlətin özünü də inkişaf etdirirlər. Bunu dərindən dərk edən savadlı və ağıllı şagirdlərimizdən biri də Nərimanlı Nuray Xalid qızıdır. Növbəti yazımızla bu şagirdimiz haqqında məlumat verməyi özümüzə borc bilirik.

Nərimanlı Nuray Xalid qızı 2011-ci ilin martın 27-də Sabirabad rayonunun Çiçəkli kəndində dünyaya göz açıb. O, 2017-cı ildə Çiçəkli kənd tam orta məktəbinin 1-ci sinifinə getməklə sehirli məktəb həyatına qədəm qoymuşdur. Hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Məktəb əlaçısı və istedadlısı olan balaca Nuray hər zaman aktivliyi və çevikliyi digər şagirdlərdən seçilib. Nuray nəinki sinifdə, hətta məktəb tədbirlərində faal şagird kimi ad qazanıb, intonasiyalı şer ifaçısı kimi tanınıb. Riyaziyyat başda olmaqla onun bütün fənlərə böyük marağı və həvəsi var, ancaq ən sevimli müəllimi sinif müəllimi olan Ülviyyə müəllim və fiziki tərbiyə müəllimi olan Sahib müəllimdir. Rəsm, ana dili, riyaziyyat, fiziki tərbiyə dərsləri isə onun ən çox sevdiyi fənlərdir. Dərslərini yaxşı və məsuliyyətlə oxuyan bu balaca qızımızın ən böyük arzusu gələcəkdə ibtidai sinif müəllimi olmaqdır. Nuray hazırda da məktəb tədbirlərində feal iştirak edir, maraqlı çıxışlarda rol alır. Asudə vaxtlarını kitab oxumaqla və idmanla məşğul olmaqla keçirir. Onun üçün həm mütaliə, həm fiziki məşğələ insanın vəhdət halında fiziki və zehni sağlamlıq inkişafına xidmət edir.

Nurayın ailəsi 4 nəfərdən ibarətdir. Atası Nərimanov Xalid Aslan oğlu 1981-ci il mayın 26-da Sabirabadın Çiçəkli kəndində anadan olub, neft boru kəmərində mühafizəçi kimi çalışır. Anası Nərimanova Kəmalə Maşallah qızı 1978-ci il sentyabrın 3-də Sabirabadın Çiçəkli kəndində anadan olub, evdar xanımdır. Hər iki valideynin istəyi uşaqların təlim-tərbiyəsi və təhsili ilə ciddi məşğul olmaqla yanaşı, onların gələcəyinin parlaq və uğurlu olmasıdır. Qardaşı Nihad Nərimanlı isə məktəblidir. O, 5-ci sinifdə oxuyur. O, bacısının dərsləri ilə məşğul olur və maraqlı rəsmlər çəkir.

Redaksiyamız heyəti adından Nuray balanı təbrik edir, ona dərslərində müvəffəqiyyətlər və nailiyyətlər arzulayırıq. Hər zaman yolu açıq, ömrü parlaq olsun!









əmkdaşlığını zəruri edən bir prosesdir.

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını və bir çox bizlərə sirr olan məsələləri aydınlaşdırır. Jurnalımızın növbəti məqaləsi həm dəsrlərində, həm də idmanda uğurlu olan bir şagird Anar haqqında olacaq.

Anar Ağayev Ələsgər oğlu 2005-ci il yanvarın 10-u Bakı şəhərində anadan olub. Anar 2011-ci ildə Sabirabad rayon Nizami Gəncəvi adına 5 saylı kənd tam orta məktəbində təhsilinə başlayıb. Hazırda isə Anar 8b sinifində təhsil alır. O, Azərbaycan dili fənnini daha həvəslə oxuduğunu deyib, çünki doğma ana dilinə, vətəninə bağlı bir məktəblidir. Anar müəllimlərinin şagirdlərə qarşı mehriban olduğunu vurğuladı. Ən çox sevdiyi müəllimi isə Xuraman müəllimdir. Eyni zamanda o,idmanla məşğul olur. MMA idman növü üzrə bir çox uğura imza atan Anar bu yolda sevdiklərinin və idman müəllimi Məhərrəm Pənahovun ona daim dəstək durduğunu deyir. UFC idman növü üzrə 1 qat dünya çempionu, 8 qat Respublika və Avrasiya çempionu olan Sənan daha çox qələbə qazanıb ölkəmizin bayrağını digər ölkələrdə yüksəltmək istəyir. Aprel döyüşləri şəhidlərinin xatirəsinə keçirilən Respublika çempionatında birinci yeri tutub. Əzmi ilə hərkəsin rəğbətini qazanan Anar gələcəkdə professional idmançı və yaxud pilot olmaq arzusundadır. O, böyüdüyü zaman bu işlərdən birinə yiyələnib xəyallarını gerçəyə çevirəcəyinə inanır.

Anar boş zamanlarında idman elədiyini bildirib. Məşqlər onu uğura doğru istiqamətləndirir.

Ağayevlər ailəsi 4 nəfərdən ibarətdir. Atası Ələsgər Ağayev 1977-ci il 13 dekabr tarixində anadan olub,Sabirabad rayon Bioloji Labaratoriyasında aparcı qrup rəhbəridir.

Anası Ağayeva Aysel 1983-cü il 14 oktyabr tarixində anadan olub, evdar qadındır.Onlar Sənanın uğurları ilə daim fəxr etdiklərini bildirib və onun gələcəyinin parlaq olmasını arzu edirlər. Anarın bir bacısı var.Ağayeva Aylin 2010-cu il fevralın 4-ü anadan olub,3-cü sinifdə oxuyur. Anar bacısına dərslərində hər zaman kömək etdiyini deyir.

Biz də redaksiya heyəti adından Anara gələcək həyatında nailiyyətlər və arzularına tez bir zamanda çatmağını diləyirik. İstər elmdə, istərsə idmanda uğurların sayı-hesabı bitib tükənməsin.

# Yaqubova Türkan

## "Ailənin böyüyü, məktəbin əlaçısı"






**Müdrik şəxs vəzifəli adamlara möhtac olmaya bilər. Amma vəzifəli şəxslər müdrik adama möhtacdırlar.**

**(Mirzə Şəfi Vazeh)**

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir. İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər. Hamımız həmişə yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik. Aqil, müdrik insanlar əsrlər boyu təhsilli, elmli insanlara yüksək qiymət vermiş, onlara hörmət və ehtiramla yanaşmışdır. Elmsiz, təhsilsiz bir insan yolunu azmış kor bir səyyaha bənzər ki, kiçik bir çuxur onu məhv edər. Elm və bilik insanın dünyagörüşünü artırır. Elmli insanla elmsiz insan arasında dağlar qədər fərq vardır. Elm, savad bilik qazanmalıyıq ki gələcək övladlarımıza bizdən miras qalsın. "Çağdaş Təhsil" jurnalının bu yazısında isə biz gənclərimizi oxumağa meyl etdirməliyik. Elm qazanmaq üçün indidən çalışan və bu yolda əzmlə zəhmət çəkən Yaqubova Türkandan söhbət açacağıq.

Yaqubova Türkan Seymur qızı 11 may 2006 -cı ildə Sabirabad rayonunun Zal Qarağac kəndində sadə zəhmətkeş bir ailədə dünyaya göz açıb. Ailənin ilki olan Türkan hər bir şagird kimi orta məktəbə getməyə tələsir və bu minvalla 2012-ci ildə o, bu istəyinə qovuşur. Həmin ilin tədris ilindən etibarən Sabirabad rayonu Ağaşirin Mikayılov adına Zal Qarağac kənd tam or-







# Həsənov Mehman

## "Gələcəyin şərəfli və savadlı müəllimi"







**"Elm bizim hissi təcrübəmizin xaotik müxtəlifliyinin hansı isə vahid təfəkkür sisteminə uyğunlaşdırılmasıdır"**

***(Albert Eynşteyn)***

Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər. Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Amma çalışmaq lazımdır ki, daim oxumaq və öyrənmək insan həyatının əsas qayəsi, əsas prinsipi olsun. Həsənov Mehman İlqar oğlu da oxumağı özünə əsas həyat qayəsi seçənlərdən olan savadlı və əlaçı şagirdlərdəndir.

Həsənov Mehman İlqar oğlu 2002-ci ilin 21 oktyabrında Sabirabad rayonun Çiçəkli kəndində dünyaya gəlib. O, 2009-cu ildə Əsgər Şərbətov adına Çiçəkli kənd tam orta məktəbin 1-ci sinfinə getməklə öz uşaqlıq aruzu olan məktəb həyatına qovuşur. Hazırda həmin məktəbin 10-cu sinif şagirdidir. O, məktəbin əlaçı və fəal şagirdlərindəndir. Ən sevimli müəllimləri Elvin, Tərlan və Həsən adlı müəllimləridir. Azərbaycan dili və ədəbiyyat fənni isə sevimli fənləridir. Gələcəkdə ən böyük arzusu müəllim olmaqdır. Yuxarı sinifdə oxuduğu üçün indidən "Kainat" kursuna hazırlığa gedir, 3 -cü qrupa üzrə hazırlaşır. Həmin kursun təşkil etdiyi sınaq imtahanlarında itirak etməklə yüksək bal toplayaraq öz bilik və savadını yoxlayır. Onun topladığı bal 400 bal və ondan üstün olur. Atasının verdiyi məlumata görə Mehmanın savadlı və əlaçı şagird olduğuna görə qəzetdə haqqında yazı və şəkli, uzun illər isə məktəbin şərəf lövhəsində şəkli gedib. Boş vaxtlarında Mehman ancaq dərs oxuyur, dostları ilə birgə futbol oynayır.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Həsənov İlqar Dostəli oğlu 1979-cu il noyabrın 1-də anadan olub, orta təhsilli, kənd təsərrüfatında çalışan zəhmətkeşdir. Bir ata kimi halal zəhməti ilə ailəsini və övladlarını saxlayır, onların sağlam və xoşbəxt olmasını istəyir. Anası Həsənova İradə xanım isə 1980-ci il noyabrın 1-də anadan olub, orta təhsilli, evdar qadındır. Bir ana kimi övladlarının təlim-tərbiyəsi və təhsili ilə maraqlanır. İstəyir ki, övladlarının xoş xəbərlərini alıb, xoşbəxt tale sahibi olmalarının şahidi olsun. Bacısı Lalə Həsənova 2006-cı il iyunun 5-də anadan olub, 6-ci sinifdə oxuyur, əlaçı şagirddir. Mehman bildiklərini daim bacısı Laləyə öyrədir və onun da savadlı və təhsilli olmağını istəyir.

Biz də jurnal heyəti adından Mehman balanı təbrik edir, ona dərslərində müvəffəqiyyətlər arzulayırıq. Ümid edirik ki, daim öyrəndiyi elm-bilik onun köməyinə çatar və adını yüksəklərə qaldırar.



# Məmmədzadə Mehrican

## "Kitabsevər alaçı, gələcəyin mühəndisi"





**"Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir"**

***(F.Bekon)***

Elm olmayan yerdə ixtisaslı kadrlar, inkişaf da və deməli, gələcək də olmayacaq. Elmə doğru gedən yol isə təhsildən keçir. Hazırda Azərbaycanda gənc nəslin elm və təhsilə cəlb olunması üçün dövlət tərəfindən mühüm addımlar atılır. Bunun bariz nümunəsi olaraq Elmin İnkişafı Fondunun, Bilik Fondunun gənc tədqiqatçılar üçün yaratdığı şəraitdən, perspektivlərdən, həyata keçirilən layihələrdən söz açmaq kifayətdir. Eyni zamanda, hər il dövlət büdcəsindən elm və təhsilə milyonlarla manat vəsait ayrılır, yeni məktəblər tikilir, onların maddi -texniki bazası yenilənir. Amma bütün bunlar görülməsi vacib olan işlərin yalnız bir faizidir.

Məmmədzadə Mehrican Vüsət qızı 2004-cu il noyabrın 16-ı Sabirabad rayon Ulacalı kəndində dünyaya göz açıb. 2011-ci ildə Sabirabad rayon Böyükkişi Ağayev adına Ulacalı kənd tam orta məktəbinə başlayan bu ağıllı bala indi bu məktəbin 8a sinifində təhsilini davam etdirir.Çalışqanlığı ilə bütün müəllimlərin tərifini qazanan Mehrican, hər zaman daha yaxşı oxumağa və öyrənməyə cəhd edir. O,bütün fənnləri çox sevdiyini deyir. Mehrican, eyni zamanda fənn müəllimlərinin çox qayğıkeş olduğunu əlavə edib. Dərslərinə məsuliyyətli şəkildə hazırlaşan Mehrican, məktəb üzrə keçirilən bir çox imtahanlarda məntiq üzrə uğur qazanıb. Bu savadlı balanın gələcəyinə dair arzuları çoxdur. O, böyüdü zaman yüksək ali təhsilli mühəndis olmaq istəyir. Mühəndislik (mühəndis ərəbcə həndəsəni bilən şəxs deməkdir) - bir peşə sahəsi olub, elmi-nəzəri əsaslanmış və emprik təsdiq edilmiş biliklərin və üsulların sistematik olaraq mənimsənilməsi və tətbiq olunmasını əhatə edir. Mehrican da inanır ki, gələcəkdə bu sahədə peşakar bir mütəxəssis kimi fəaliyyət göstərəcək.

Boş vaxtlarında kitab oxumağı və mahnıya qulaq asmağı sevdiyini deyir.

Mehricanın ailəsi 6 nəfərdən ibarətdir. Atası Məmmədov Vüsət Güloğlan oğlu 1981-ci il sentyabrın 14-ü anadan olub. Anası Məmmədova Anaş Yolçu qızı 1984-cü il may ayının 4-ü anadan olub. Mehrican 3 qardaşın bir bacısıdır. Qardaşı Məmmədzadə Vüsal 2006-cı il mayın 8-i anadan olub,7-ci sinifdə oxuyur. Məmmədzadə Güloğlan 2009-cu il 19 noyabr tarixində anadan olub,3-cü sinifdə təhsil alır. Balaca qardaşı Məmmədzadə Cahid 2015-ci il oktyabrın 16-ı anadan olub,3 yaşı var. Valideynlərinin hər birinin istəyi Mehrican başda olmaqla bütün övladlarına sağlam və xoşbəxt olmağı, uğurları ilə daim onları sevindirməyi arzu edir.

Biz də öz adımızdan adı kimi özü də gözəl olan Mehricana elm və savad yolunda daim belə əmin addımlarla irəliləməsini arzu edirik. Ümid edirik ki, Mehrican həmişə uğurlu övlad və yetirmə olaraq ailəsinin və müəllimlərinin fəxri olacaq.







ta məktəbinin birinci sinfinə yollanan Türkanın uğurlu orta məktəb həyatı başlayır. Hazırda həmin məktəbin 7-ci sinifində təhsil alan Türkan sinif alaçısıdır. O dərslərini yaxşı oxuyur və təbiət fənlərini daha çox sevərək mənimsəyir. Onun ən sevdiyi fənlər riyaziyyat, biologiya, kimya, tarix fənləridir. Ən sevimli müəllimləri isə Ceyran, Gülvari və Qədriyə adlı müəllimləridir. Dərslərinə məsuliyyətli hazırlaşan Türkan balanın ən böyük istəyi gələcəkdə yüksək tibbi təhsilli həkim olmaqdır. O, həkim olmaqla çalışır ki, cəmiyyətinə, xalqına faydalı olub sağlam tibbi yardımını edə bilsin. Asudə vaxtlarında bədii kitablar oxuyur, xüsusilə də detektiv janrda olan yerli və xarici yazarların əsərlərini mütalie edir, elə bu janrda da çəkilən filmləri də sevərək izləyir. Onun ailə üzvlərinin sayı 5 nəfərdir.

Elcanın atası Yaqubov Seymur Məzahir oğlu 1980-ci il aprelin 6-da anadan olub, orta təhsilli, kənd təsərrüfatı işi ilə məşğuldur. Bir ata kimi onun istəyi övladının təhsilli olub gələcəyinin parlaq olmasıdır. Türkan üçün ata ən azı ana qədər müqəddəs və zəhmətkeşdir. O, atasını çox sevir və onun özü ilə bağlı azrularını gerçəkləşdirməklə onu sevindirmək istəyir.

Anası Yaqubova Məryəm Səfaralı qızı 1987-ci il iyulun 20-də anadan olub, orta ixtisas təhsillidir, sinif müəllimi kimi Zal Qarağac kənd məktəbində çalışır. Bir ana kimi istəyi övladlarının xoşbəxt və parlaq taleyə sahib olmalarıdır. Qızı da çalışır ki, anasının ona olan inam və etimadını doğrultsun.

Türkanın Elcan adında bir qardaşı və Səmayə adında bir bacısı var. Elcan 5-ci sinif şagirdidir, Səmayənin isə 3 yaşı var. Türkan onların hər ikisindən yaşca böyük olduğu üçün çalışır ki, onları həm sevsin, həm də qorusun. O, bildiklərini daima onlara öyrədir və onları məlumatlandırır.

Jurnalın yaradıcı heyəti adından biz də Türkan balamızı təbrik edir, ona gələcək həyatında, dərslərində uğurlar arzu edirik. Səsin daim yüksəklərdən gəlsin və uğurların ilə daim sevənlərinin qürur mənbəyi olasan!





# Yaqubov Elcan

## "Gələcəkdə hakim olmaq istəyən əlaçı məktəbli"





**"Elm adamlarının qədrini bilməyən və onların layiq olduğu mükafatı verməyən ölkələr inkişaf edəcəklərini zənn etməsinlər"**

**(Volter)**

İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər. Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik. Aqil, müdrik insanlar əsrlər boyu təhsilli, elmli insanlara yüksək qiymət vermiş, onlara hörmət və ehtiramla yanaşmışdır. Elmsiz, təhsilsiz bir insan yolunu azmış kor bir səyyaha bənzər ki, kiçik bir çuxur onu məhv edər. Elm və bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Elcan Yaqubov da bu yolda inamla addımlayan məktəblilərimizdən biridir ki, onun əsas məqsədi məhz elm, təhsil yolunda getməklə ailəsinə, cəmiyyətinə faydalı şəxs kimi yetişməkdir.

Yaqubov Elcan Seymur oğlu 27 dekabr 2007-ci ildə Sabirabad rayonu Zal Qarağac kəndində dünyaya göz açıb. Hər bir şagird kimi oxumağa, təhsil almağa tələsən Elcan nəhayət ki, 7 yaşında bu arzusunu gerçəkləşdirir. O, 2014-ci ildə Ağaşirin Mikayılov





# Məmmədov Murad

## "Özü tərbiyəli, savadlı və əlaçı məktəbli"







**"Bütün elmlərin bünövrəsi təhsillə qoyulur"**

***(Əbu Turxan)***

O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır. Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. 21-si əsr elə bir əsrdir ki, bu zaman kəsiyində cəmiyyətin inkişaf templəri, onun iqtisadi inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır. Odur ki, yetişən hər gənclik savadlı və zamanın tələblərinə uyğun bilik, bacarıq imkanlarına sahib olmalıdır. Və beləliklə, oxumağı sevən istedadlı balalarımızdan biri olan Murad Məmmədovdan bəhs edəcəyik bu yazıda.

Məmmədov Murad Rəşid oğlu 2007-ci ilin noyabrın 6-da Sabirabad rayonunun Çiçəkli kəndində sadə və zəhmətkeş bir ailədə anadan olub. Kəndə doğulub böyüyüb boya-başa çatan Murad nəhayət ki, 2014-cü ildə məktəbə getmək muradına qovuşur. Beləliklə, həmin ilin sentyabrından Əsgər Şərbətov adına Çiçəkli kənd tam orta məktəbin 1-ci sinfinə gedən Murad elə ilk sinifdən əlaçı və savadlı şagird kimi tanınıb. Hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Atası deyir ki, Murad o qədər tərbiyəli, sakit və savadlı bir övladdır ki, onun haqqında yalnız öz kəndlərində deyil, onu tanıyan qonşu kəndlərdə də oğlu haqqında ancaq xoş sözlər danışılır, təlim və tərbiyəsindən razılıq bildirirlər. Əlbəttə belə bir övladın valideyni olmaq da özü bir xoşbəxtlikdir. Yazını yazarkən bu xoşbəxtliyin əlamətini atanın nitqindən hiss etdim, bu sözləri bildirərkən əhvalının xoş olmasından anladım. Əlbəttə zəhmətkeş və məsuliyyətli hər bir valideynin haqqıdır ki, övladı təhsilli və ağıllı olsun. Murad 5-ci sinfə qədər siniflərinin əlaçısı və savadlı şagirdi adını qoruyub saxlayıb və hazırda da bütün fənləri sevərək oxuyur. Amma hər bir şagird kimi daha çox sevərək oxuduğu fənlər və xüsusi rəğbət bəslədiyi müəllimlər olur. Ən çox sevdiyi fənn riyaziyyat, fiziki tərbiyə, Azərbaycan dili və ən sevdiyi müəllimlər isə Gülnar, Səfər və Rafət adlı müəllimləridir. Gələcəkdə orta məktəbi uğurla bitirib Polis Akademiyasına daxil olaraq polis işçisi olmaq istəyir. Amma həyatı qarşıda və yaşı az olan Murad inanırıq ki, gələcəkdə ən böyük arzularına çatar və ixtisaslı bir kadr olaraq cəmiyyətinə faydalı şəxs olar. Boş vaxtlarında da dərsləri ilə məşğul olan Muradın əl qabiliyyəti olduğundan müxtəlif mövzularda şəkillər çəkir, rəsmlər yaradır. İstənilən işi bir baxışla mənimsəmə istedadına malikdir, güclü götürmə qabiliyyəti var ki, atası deyir, məhz bu istedadına görə riyaziyyatı daha yaxşı mənimsəyir. Onun ailəsi özü ilə birgə 5 nəfərdən ibarətdir. Muradın atası Rəşid Məmmədov Ağagül oğlu 1978-ci il martın 15-də Sabirabadın Çiçəkli kəndində anadan olub, orta təhsilli, özəl bir şirkətdə satış meneceri kimi çalışır. Övladlarını çox sevən Rəşid bəyin yeganə istəyi onların sağlam və xoşbəxt olmasıdır. Bir ata kimi arzulayır ki, hər zaman övladlarında xoş sözlər eşitsin, xeyir əməllər görsün.

Muradın anası Məmmədova Mahirə Nuru qızı 1986-cı il noyabrın 20-də Sabirabadın Çiçəkli kəndində anadan olub, evdar qadındır. Bir ana kimi övladlarının təlim-tərbiyəsi, təhsili ilə ciddi maraqlanır və onları həyata hazırlayır. O da həyat yoldaşı kimi, övladlarının xoşbəxt bir taleyə sahib olmalarını arzu edir.

Muradın Polad adında 3-ci sinif şagirdi olan bir qardaşı , Maral adında 8-ci sinif şagirdi olan bir bacısı var. Murad bacısını və qardaşını çox sevir və daim onların qayğısına qalmağa çalışır.

Biz də redaksiya heyəti adından Murad balanı təbrik edir, ona dərslərində müvəffəqiyyətlər arzulayır, gələcəyinin parlaq olmasını diləyirik. Hər zaman ona inanmla yanaşan ana, atanın sevimlisi, baş ucalığı olsun!



# Nərmin Kərimova

## “Ömrünü müəllimliyə həsr etmək istəyən əlaçı məktəbli”





**”Öz bildiyini başqalarına öyrət, başqalarının bildiklərini də özün öyrən”**

**(Yohan Volfqanq)**

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”da ümümtəhsil məktəblərində tədris, Ali təhsilin istiqamətləri və ümümlikdə təhsilə baxış bucağının dəyişdirilməsinə zəmin yaradan hədəflər müəyyən olunub ki, buda təhsilimizdə əsaslı və sistemli dəyişikliklərin başlamasından xəbər verir. Bu o deməkdir ki, Azərbaycan Dövləti sağlam gələcək qurmaqda maraqlıdır. Dövlətin təqdirə layiq marağının təmin olunması üçün vətəndaş cəmiyyətinin üzərinədə çox böyük iş düşür. Biz dünyanın mövcud reallıqları içində yalnız başımızla var ola bilərik. Var olmaq amacı ilə gələcəyimizi qurmağa dəstək olaq!

Bü yazıda sizlərə ağıllı bir məktəbli qızımızdan söz açacağıq. Nərmin Kərimova Alim qızı  2006-ci il iyul ayının 9-u Sabirabad  rayonunda anadan olub. O, 2012-ci ildə ilk dəfə olaraq Sabirabad rayon Nəriman Nərimanov adına 2 saylı texniki təmayüllü  tam orta məktəbdə təhsil almağa başlayıb. Nərmin indi bu məktəbin 7b sinif şagirdlərindən biridir. Savadlı və çalışqan həmsöhbətimiz,hər zaman dərslərinə hazır olduğunu bildirib. Məktəb hər bir şagirdin təhsil aldığı bir müəssisədir. Hər bir şagirdin savadlı olmağında müəllimlərin rolu böyükdür. O, qayğıkeş və səbirli olan müəllimləri Aytən, Aygün, Xalidə, Şəhla, Sədaqət və Gülnar  adlı müəllimlərinin adını xüsusilə qeyd edib. Onun ən sevdiyi fənlər isə Ana dili, riyaziyyat, fizika, kimya, coğrafiya və Azərbaycan tarixidir. Hər zaman müəllimlərindən özünə örnək götürən Nərmin, gələcəkdə məhz onlar kimi qayğıkeş bir müəllim olmaq istəyir. Müəllim deyildiyi zaman nümunəvi, təcrübəli və peşəkar bir kollektiv yada düşür. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir.

Nərmin asudə vaxtlarının çox hissəsini kitab oxumağa və musiqiyə qulaq asmağa sərf etdiyini deyir.

Atası Alim Kərimov 1979-cu il 9 aprel tarixində anadan olub. Anası Afaq Kərimova 1986-cı il oktyabr ayının 4-ü anadan olub. Onlar daim dərslərində Nərminə kömək etdiklərini bildirir və övladlarının xoşbəxt, parlaq tale sahibi olmasını arzu edirlər. Nərminin gözəl bir bacısı var. Kərimova Mehriban 2004-cü il sentyabrın 15-i anadan olub, 9-cu sinifdə  təhsil alır.

Kollektivimiz adından Nərminə dərslərində uğur qazanmasını arzu edirik. Biz əminik ki, o gələcəkdə peşakar bir müəllim olacaq. Nərminə bu yolda uğur və nailiyyət arzulayırıq!





adına  Zal Qarağac kənd tam orta məktəbin 1-ci sinfinə gedərək məktəb həyatına start verir. Hazırda  həmin məktəbin 5-ci sinif şagirdidir. Dərslərində fəal olan bu balamız  oxumağı  və öyrənməyi çox sevir. Bütün dərslərini yaxşı oxuyan Elcan ilk sinifdən beşinci sinfə qədər bütün dərslərində əlaçı şagird olub və hazırda da bu statusunu qoruyub saxlamaqdadır. Onun  ən sevimli müəllimi Elmar və  Ceyran adlı  müəllimləri, Azərbaycan dili  və riyaziyyat  dərsləri isə  daha çox sevdiyi fənlərdir. Elcan öz doğma ana dilinə və elmlərin şahı hesab olunan riyaziyyata bağlıdır. Dərslərini maraq və həvəslə oxuyan bu balamız boş vaxtlarında nağıl kitabları oxuyur,detektiv janrda olan veriliş və filmləri izləyir. Maraqlıdır ki, anasının verdiyi məlumata görə Elcanın maraqlı bir vərdişi var ki, o da onun oxuduğu nağıl kitablarındakı qəhrəmanları izlədiyi cizgi filmlərindəki qəhrəmanlarla uyğunlaşdırıb oxşar yaxud fərqli məqamları tapıb üzə çıxardır. Asudə vaxtlarında bir sevimli məşğuliyyəti də dostları ilə birgə futbol oynaması və velosiped sürməsidir. Elcanın peşə seçimi  bağlı olan arzusu da  fərqlidir. Qəribədir ki, Elcan gələcəkdə detektiv olmaq istəyir. O, bu sənətə o qədər bağlıdır ki, istəyir detektiv olmaqla cəmiyyətdəki qatil və cinayətkarları öz maraqlı peşə üsulu ilə axtarıb tapıb üzə çıxartsın və cəzalandırsın. Onun bütün arzuları  ilə həmrəy  olan Elcanın ailəsi daim ona dəstək olur və onun inamlı, güclü olmasını istəyirlər. Elcanın ailəsi 5 nəfərdir.





Elcanın  atası Yaqubov Seymur Məzahir oğlu 1980-ci il aprelin 6-da anadan olub, orta təhsilli, kənd təsərrüfatı işi ilə məşğuldur. Bir ata kimi onun istəyi övladının təhsilli olub gələcəyinin  parlaq olmasıdır.

Anası  Yaqubova Məryəm Səfaralı qızı 1987-ci il iyulun 20-də anadan olub, orta ixtisas təhsillidir, sinif müəllimi kimi Zal Qarağac kənd məktəbində çalışır. Bir ana kimi istəyi övladlarının xoşbəxt və parlaq taleyə sahib olmalarıdır.  Elcanın iki bacısı var. Böyük bacısı  Yaqubova Türkan Seymur qızı  2006-cı il mayın 11-də anadan olub. 7-ci sinif şagirdidir. Kiçik bacısı Yaqubova Səmayə 2016-ci ilin martın 3-də anadan olub.  Elcan hər iki bacısını çox sevir və onları qoruyur.

Redaksiya heyəti adından Elcanı  təbrik edir və ona gələcək həyatında və işlərində uğurlar arzulayırıq. Daim valideynlərinin və müəllimlərinin fəxri olsun!

# MİRZƏYEVA ELZA

## "Rəssamlıqda fitri istedadı olan məktəbli"





**"Bilməməkdən qorxma səhv bilməkdən qorx. Çünki bütün fəlakətlər ona görə baş verir"**

***(Lev Nikolayeviç Tolstoy)***

Bizim həyatımız elə qurulub ki, hələ uşaq çağlarından qoca vaxtlarımıza qədər hər gün yeni bir bilgi əldə edirik. Zaman keçdikcə hər bir insanın dünya görüşü genişlənir və zənginləşir. Əldə etdiyimiz bilik və məlumatlar kitablardan, jurnallardan, televiziya verilişlərindən qazanırıq. Lakin bunlarla yanaşı, müasir zamanda ən mütərəqqi məlumat mənbəyi kompyuterdir, daha doğrusunu desək kompyüter vasitəsi ilə daxil olduğumuz internet aləmidir. Bu möcüzəvi aləmdən ürəyiniz istəyən bilgini əldə etmək mümkündür. Halbuki, bu aləmi yaradan insan oğludur. Görəsən bütün nəzərdə tutduğunu yekun nəticəyə çatdırmaq üçün nə qədər biliyə malik olmalısan? Demək olar ki, kompyuter proqramları sahəsində çalışan insan çoxlu kitab oxuyub və hər zaman kamilliyə doğru irəliləyir.



Hələ qədim zamanlarda böyük alim Hiloni deyirdi:

"Müdrik insan öz əməlləri ilə tanınanda,
Onun müdrikliyinin dəyəri də artacaq".

Biliyə və elmə can atmayan insanı cahil insan adlandırırlar. Belə bir insanla bir yerdə olmaq çox maraqsızdır və həddindən artıq darıxdırıcıdır. Ona görə geniş surətdə elmə, biliyə yiyələnmək və irəliləmək



# İsayev Nurəli

## "Qızıl medal qazanan əlaçı şagird"



**"Yaxşı kitab aysberqə oxşayır, onun yeddi-səkkiz hissəsi suyun altında gizlənib"**

***(Ernest Heminquey)***

Bilik - insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusudur. Bilik mühəndisliyi baxımından bilik formallaşdırılmış informasiyadır. Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır. İnsanlar daima biliyin ardınca qaçmalı, daim bilik əldə etmək üçün çalışmalıdır. Belə məktəbli dostlardan biri də İsayev Nurəlidir.

İsayev Nurəli Yaşar oğlu 2009cu ilin iyulun 30- da Şirvan şəhərində sadə zəhmətkeş bir ailədə anadan olub . O, 2015 ci ildə Sabirabadın Mahir İsmayılov adına Poladtuğay kənd tam orta məktəbin 1ci- sinfinə daxil olub. Hazırda həmin məktəbin 4a sinif şagirdi olan balaca dostumuz boş vaxtlarını kitab oxumaqla dəyərləndirir və atasına kömək edir. Onun üçün kitab oxumaq zehni gücləndirir, insanın mənəvi, zehni qabiliyyətini artırırsa, fiziki əmək insana müsbət təsir göstərir. Müəllimlərinə və dərslərinə qarşı məsuliyyətli olan Nurəlinin en sevdiyi fənn Azərbaycan dili fənnidir. O, bütün müəllimlərini çox sevir, lakin Səidə müəllimini xüsusilə vurğulayır. Müəlliminə daha çox yaxşı tədris və ana kimi şagirdlərə qayğı göstərməsinə görə xüsusi rəğbət bəsləyir. Gələcəkdə həkimlik peşəsində özünü görən Nurəli 4-cü sinifdə oxumasına baxmayaraq "Avropa" kurslarının təşkil etdiyi bilik yarışmasında iştirak edərək qızıl medal qazanıb. Ailəsi 4 nəfərdən ibarət olan Nurəlinin atası İsayev Yaşar 2 may 1978-ci il təvəllüdlüdür, orta təhsillidir. Şəxsi təsərrüfatla məşğul olur. O, övladlarının gələcəyi üçün çalışan ailə başçısından əlavə, həm də övladlarına hər mövzuda dayaq olan bir valideyndir. Onları çox sevir və qayğıkeş bir ata olaraq onların qayğısına qalır. Anası İsayeva Şəbnəm Valeh qızı 11 iyul 1986-cı il təvəllüdlüdür, orta təhsilli, evdar xanımdır. O, daima övladlarının qayğısına qalır və hər zaman onların ən böyük dəstəkçisidir. Nurəlinin kiçik bacısı olan İsayeva Yağmur Yaşar qızı 2013-cü il 20 avqust tarixində anadan olmuşdur. Hal-hazırda 5 yaşı var və məktəbəqədər hazırlığa gedir. O da qardaşı kimin əlaçı və savadlı olmaq istəyir.

Biz də jurnalımız adından Nurəliyə həyatında və təhsilində bol uğur arzulayır, gələcəyinin parlaq olmasını diləyirik. Yolun açıq , taleyin uğurlu olsun!

# Əmənzadə Nahid

## "Gələcəyin təbiətsevər bioloqu"







**Elmi biliklər üst-üstə yığılarkən bəzən ən qiymətliləri altda qalır, onları tapıb yenidən üzə çıxarmaq üçün hərdən bütün sistemi dağıdıb yenidən qurmaq lazım gəlir.**
***(Əbu Turxan)***

Elmsiz, biliksiz ömür ömür deyildir. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir, elmin gözəlliklərindən bəhrələnir, ali savadlı gənc olaraq yetişir. Özünü və gələcəyini cahil, heç nə bilmədən keçirmir. Həyatını elmə həsr edir, elm öyrənir. Yaşayaraq öyrənilən bilik daş üzərinə yazılan yazı kimidir. Nə qədər pozmağa çalışsan da pozulmaz. Elm öyrənmək zəhmət tələb edir. Müasir elm və tərəqqi elə bir səviyyəyə gəlib çatmışdır ki, nə orta, nə də ali məktəblər insana onun həyatının axırına kimi bütün bilik və elm verə bilmir. Məhz buna görə də hər bir insan daim axtarışda olmalı, yeniliklərlə tanış olmalı, yeni biliklər əldə etməlidir.

Əmənzadə Nahid Qılman oğlu 13 iyul 2007-ci ildə Sabirabad rayonu Zal Qarağac kəndində müəllim ailəsində anadan olub. O, 2013-cü ildə Zal Qarağac kəndi Ağaşirin Mikayılov adına tam orta məktəbin 1-ci sinfinə gedib. Hazırda həmin məktəbin 6-ci sinif şagirdidir. Dərslərində fəal olan bu balamızın ən böyük arzusu gələcəkdə biologiya müəllimi olmaqdır. Onun təbiət elminə, xüsusilə flora və faunaya xüsusi marağı var. Riyaziyyat və biologiya fənlərinə marağı daha çoxdur. Bu fənləri mənimsəmək onun üçün asandır. Ceyran və Gülvari adlı müəllimlər isə onun sevimli müəllimləridir. O, bu müəllimlərini həm yaxşı fənni sevdirməsinə, həm də yaxşı tədris etməsinə görə xüsusi rəğbət bəsləyir. Boş vaxtlarında dərsləri ilə yanaşı, əlavə kitablar oxumağı sevir. Kitab oxumaq onun üçün həm asudə vaxtının səmərəli təşkili, həm də dünyagörüşünün artması istiqamətində bir üstünlükdür. Dərslərində əlaçı olan Nahid həm də məktəb tədbirlərində aktiv iştirakçıdır. O, bu tədbirlərdə şer deyir, müəyyən çıxışlar edir.

Nahid ailəsi 4 nəfərdən ibarətdir. Atası Əmənov Qılman Fərrux oğlu 1981-ci il noyabrın 5-də Sabirabadın Zal Qarağac kəndində anadan olub, orta ixtisas təhsilli fiziki tərbiyə müəllimidir. 13 ildir ki, doğma kəndlərinin məktəbinə fiziki tərbiyə müəllimi kimi çalışır.

Anası Əmənova Günay Rafayıl qızı 1981-ci il mayın 5-də anadan olub, orta təhsilli evdar xanımdır.

Hər iki valideyn çalışıb zəhmət çəkir ki, övladlarının taleyi parlaq, gələcəyi uğurlu olsun. Məhz onların yeganə istəyi də budur. Xoşbəxt tale sahibi olan övladların valideyni olmaq.

İki qardaşı var. Elnur adlı böyük qardaşı 2009-cu il dekabrın 9-da anadan olub 3- cü sinif şagirdidir. Kiçik qardaşı İbrahim isə 2017-ci il dekabrın 30-da anadan olub.

Redaksiya heyəti adından Nahidi təbrik edir, ona gələcək həyatında və işlərində uğurlar arzulayırıq. Daim valideynlərinin və müəllimlərinin fəxri olmaqla xoş sədaların çarçısı olsun!











lazımdır. Bizim elmimiz və bildiklərimiz bizim gələcəyimizdir. Hər bir insan müdrik və dahi insan Nizaminin söylədiklərinə görək əməl etsin:

**"Bir elim öyrənmək istədikdə sən,**
**Çalış ki, hər şeyi kamil biləsən,**
**Kamil bir palançı olsa da insan,**
**Yaxşıdır yarımçıq papaqçılıqdan".**

Əldə etdiyi bilik və məlumatları özündə bir sərvət kimi saxlayan və daha da irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Mirzəyeva Elzadır.

Mirzəyeva Elza Zaur qızı 9 yanvar 2005-ci ildə Küdəmir rayonunda anadan olub. 15 sentyabr 2011-ci ildə Kürdəmir rayon T.İsmayılov adına 1 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuş hazırda həmin məktəbin $8^v$ sinif şagirdidir. Məktəbə qədəm qoyduğu ilk gündən bu günə kimi dərslərinə olan marağı, məsuliyyəti onu digər yoldaşlarından fərqləndirib. Məsuliyyətliyi və çalışqanlığı ilə Sevinc, Lamiyə və Nairə adlı müəllimlərinin sevgisini və hörmətini qazanan Elzanın sevimli fənləri kimya və fizikadır. Dərslərindən əlavə fərqli istedadını üzə çıxarmaq üçün rəssamlıqla da məşğul olur. Bu onun sevimli məşğuliyyətidir. Və ilk növbədə fitri istedadını inkişaf etdirmək üçün əsas amildir. Rəssamlıq peşəsi dünyada ən çətin və cəsarət istəyən məsuliyyətli bir peşədir. Çünki rəssamlıqda savad və bilikdən əlavə hünər və cəsarət birləşir. Elza bu sahə üzrə bir neçə dəfə rayonda keçirilən rəsm müsabiqəsində qabaqcıl yerlərdən birini tutub. Elzanın gələcəkdə ən böyük arzusu müəllim olmaqdır. Öz müəllimlərinin yolunu getmək savadlı pedoqoq olmaq istəyir.- Müəllim əməyini yüksək qiymətləndirən Elza bu peşənin məsuliyyətli olduğunu qeyd edərək bildirib ki, müəllim insan kapitalının formalaşmasında gələcək nəsillərin böyüməsində, tərbiyə olunmasında həlledici rol oynayır. Elza asudə vaxtlarını maraqlı bədii kitablar oxumaqla, musiqiyə qulaq asmaqla, şəkil çəkməklə keçirir.

Elzanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Mirzəyev Zaur Dağıstan oğlu 17 avqust 1975-ci ildə Kürdəmir rayonunda anadan olub. Zaur bəyin şəxsi mağazası var, ticarətlə məşğul olur.

Anası Mirzəyeva Ülviyyə Ağabala qızı 30 oktyabr 1978-ci ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır. Hər iki valideynin istəyi övladlarının sağlam və xoşbəxt bir ömrə sahib olmasıdır.

Elzanın bir bacısı, bir qardaşı var.

Qardaşı Mirzəyev Ayxan Zaur oğlu 10 iyun 2016-cı ildə anadan olub. 3 yaşı var.

Bacısı Mirzəyeva Lamiyə Zaur qızı 10 may 2003-cü ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 10-cu sinifdə oxuyur.

Biz də redaksiyamız adından Elza balamıza müvəffəqiyyətlər diləyirik. İnanırıq ki, orta məktəbi bitirib həyata vəsiqə alaraq müstəqil həyat yoluna davam edə biləcək.

# ABDULLAZADƏ FƏZİLƏT

## "Ölkəsinin təhlükəsizliyini düşünən əlaçı məktəbli"





**”Uğur və uğursuzluq arasında bir boşluq dayanır ki, onun da adı “mənim vaxtım yoxdur” kəlməsidir”**

***(Maykl Altşüler)***

Uğura doğru gedən yol müəyyən zaman kəsiyindən keçir. Zaman isə hər zaman lövbər salmayan sürətli gəmiyə bənzəyir. Onu saxlamaq, geriyə qaytarmaq mümkün deyil. Lakin ağılla idarə etmək olar. Zamanı idarə etməyi bacaran insan məqsədə doğru yolunu planlaşdıran və bunun üçün lazım olan zamanı ayırmağı bacaran insandır. Həmsöhbətimiz Fəzilət də vaxtını düzgün quraraq, daima uğura can atır. Təhsillə inamla addımlamaq istəyir.

Fəzilət Abdullazadə Elnur oğlu 2011-ci il 8 mart tarixində Saatlı rayonunda dünyaya göz açıb. Dərslərinə çalışqan olan həmsöhbətimiz, 2017-ci ildə I sinfə qədəm qoymuşdur. Hal-hazırda Saatlı rayon Alı Mustafayev adına ümumi orta məktəbinin II sinfində oxuyur. O, bütün keçdiyi fənləri çox sevir, hər birinə böyük məsuliyyət hissi ilə hazırlaşır. Səbəbsiz deyil ki, balaca Fəzilət qısa müddətə öz hazırcavablığı və istedadı ilə sinif nümayəndəsi olaraq seçilib. Aynur xanım onun sevimli pedaqoqudur. Dərslərində əldə etdiyi uğurlara görə ”Diplom”a layiq görülməsi təqdirəlayiqdir. O, dəfələrlə sınaq imtahanlarında iştirak edərək 1-ci və 2-ci yerlərə çıxıb.

Mütaliəyə çox böyük marağı var Fəzilətin. Asudə vaxtlarını kitab oxumağa həsr edən müsahibimizin elə hobbisi də bədii kitablar oxumaqdır. O kitablar ki, onun düşüncə tərzində, dünyagörüşündə əsaslı dəyişikliklər





# Şamil Qədirov

## “Elm yolu ilə getmək istəyən məktəbli”





**”Yaxşı kitablar oxumaq keçmiş əsrlərin ağıllı adamları ilə söhbət etmək deməkdir”**

***(R.Dekart)***

Elmsiz cəmiyyət gec-tez uçuruma doğru gedər və tarixi keçmişə qovuşar. Çünki cəmiyyətlər, ölkələr işləyən insan beyni əsasında idarə olunur və inkişaf etdirilir. Zamanla hər bir sahədə olduğu kimi elmdə də böyük inqilabi kəşflər, təkamül prosesi baş verir ki, bütün dünyada buna şahid oluruq zamanla. Hazırda 21-ci əsr böyük kəşflər əsri olduğuna görə bu kəşflərə açıq və çalışan cəmiyyətlər öz inkişaf mərhələsinin ən yeni dönəmlərini yaşayır və sivil cəmiyyət olaraq təhsil, elm məsələlərində bütün ciddi problemlərini həll edib vətəndaşları üçün rahat və əlçatan yaşam tərzi qurublar. Bu da insan kapitalına olan maraq və təhsilin inkişaf səviyyəsindən asılıdır. 21-ci əsrin inkişaf etməkdə olan ölkəsi olaraq bizim ölkənin də ixtisaslı kadrlara, yüksək təhsil sisteminə və güclü iqtisadiyyata ehtiyacı var. Bunlar isə gənclərin, yeni nəslin öhdəsinə düşən və onlardan asılı olan bir məsələdir. Bu öhdəliyi dərk edən və indidən dərslərini yaxşı oxuyan məktəblilərdən biri Şamil Qədirovdur.

Şamil Qədirov Faiq oğlu 2005-ci il 19 dekabr tarixində Sabirabad rayonunun Əlicanlı kəndində sadə və zəhmətkeş bir ailədə dünyaya göz açıb. Bu ağıllı bala 2012-ci ildə Sabirabad rayon Nəriman Nərimanov adına 2 saylı texniki təmayüllü tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Şamil hazırda həmin məktəbin 7v sinifində təhsilini davam etdirir. O, dərslərinə ciddi şəkildə hazırlaşır. Məsuliyyətli olan bu ağıllı bala, sinifdə daim fəalığı ilə seçilir. Hər bir şagirdin sevimli fənni olduğu kimi Şamilin də sevimli fənləri var. O, təsviri incəsənət və riyaziyyat dərsini daha həvəslə oxuduğunu deyir. Şamil bu fənni oxumaqda ona dəstək olan Həsən müəllimin adını xüsusilə vurğuladı. Tarix fənni üzrə keçirilən yarışda seçilən Şamil məktəb tərəfindən ”Fəxri Fərman”a layiq görülüb. Şamil uğurlarının davamlı olması üçün daim dayanmadan oxuduğunu deyir. Bu savadlı şagirdin gələcəkdə yiyələnmək istədiyi peşə həkimlikdir. Bir çox məktəblinin xəyalıdır həkimlik. İllər ötsə də həkimlik sənəti, indi də dünyada ən məsuliyyətli və həyati vacib peşələrdən biri kimi göstərilir. Çünki bu sənətin sahibləri insanların ən dəyərli neməti olan sağlamlıqlarının keşiyindədir.Şamil də, gələcəkdə arzuladığı peşəyə sahib olmaq üçün əlindən gələni etməyə hazır olduğunu bildirib.

O, boş vaxtlarında dərslərini oxuyur və daha çox bilik əldə etmək üçün daim mütaliə edir. Bununla yanaşı o,rəsm çəkməyi çox sevdiyini bildirib.



Şamilin ailəsi 4 nəfərdən ibarətdir. Atası Qədirov Faiq 1970-ci il 26 sentyabr tarixində anadan olub, orta təhsillidir, ticari obyektdə çalışaraq ailəsini, övladlarını halal zəhməti ilə saxlayır. Anası Qədirova Ədilə 1978 -ci il sentyabrın 1-i anadan olub, evdar qadındır. Daim övladlarının təlim-tərbiyəsi, təhsili ilə ciddi maraqlanır, onların qayğısına qalır. Hər iki valideyn çox istəyir ki, övladları yüksək təhsilli, ağıllı, cəmiyyətə layiqli şəxslər olsun.

Şamilin bir qardaşı var. Qardaşı Qədirov Sadiq Faiq oğlu 2000-ci il sentyabr 27-i anadan olub, hazırda Sabirabad Dövlət Sosial -İqtisadi kollecində təhsil alır. Şamil sonda ailəsini sevdiyini və onların başını uca etmək üçün əlindən gələni edəcəyini bildirir.

Jurnalımız adından Şamilə təhsilə, elmə hər zaman önəm verməsini və daim bu yolda uğurla addımlamasını arzu edirik.Ömür yolu açıq, uğurları bol olsun!

# RƏSULZADƏ AYAN

## "Hobbisi təhsilli olmaq, məşğuliyyəti şəkil çəkmək, gələcəkdə isə müəllim olmaq istəyən məktəbli "







**"İnsanı dörd şey hörmətli edər: birincisi doğru danışmaq, ikincisi ədəbli olmaq, üçüncüsü elmli olmaq və nəhayət, dördüncüsü, xoşxasiyyət olmaq"**

***(N.Tusi)***

Gənclik, bizim gələcəyimiz, ümidimizdir. Onlar dünyamızı daima işıqlandıran ulduzlardır. Hər bir valideyn öz övladı ilə fəxr edir. Haqqında söhbət açacağımız balaca Ayan da fəxr ediləsi məktəblilərdəndir.

Ayan Nicat qızı Rəsulzadə 2010-cu il mart ayının 4-də Saatlı rayonunda doğulub. 2016-cı ildə Saatlı rayonu Əlisoltanlı kənd tam orta məktəbində 1-ci sinfə qədəm qoyub. Halhazırda həmin məktəbin 3-cü sinfində təhsilini davam etdirir. Ayan dərslərində çox fəaldır. Gələcəkdə müəllim olmaq istəyən qəhrəmanımız ən çox riyaziyyat fənnini, Afət, İlkin, Pərvin adlı müəllimlərini çox sevir. Xasiyyətcə sakit, mülayim bir qızdır. Ayan mütaliəni çox sevir. Təhsildəki uğur və nailiyyətləri isə məktəbdə keçirilən bilik yarışlarında və sınaq imtahanlarında iştirak etməklə yüksək bal toplamağı və müəyyən yüksək nəticələr göstərməsidir. Ən son uğuru isə "Xəmsə" intellektual yarışmasında iştirak etməklə 350 bal yığması ilə sinifdə birinci olmasıdır. Boş vaxtlarında kitab oxuyur, rəsm çəkir, maraqlı əl işləri hazırlayır. Hobbisi isə qələm yığmaqdır. Ən böyük istəyi təhsilli insanlara bənzəməkdir. Həyatda ən böyük idealı Rəsulov İskəndərə bənzəməkdir.

Həmsöhbətimizin ailəsi 5 nəfərdən ibarətdir. Atası Rəsulov Nicat 1981-ci il noyabrın 29-da anadan olub, orta təhsilli, kənd təsərrüfatı işçisidir. Anası Rəsulova Elnarə 1989-cu il sentyabrın 24-də anadan olub, orta təhsilli evdar qadındır. Hər iki valideynin istəyi övladlarının xoşbəxt, sağlam və uğurlu tale sahibi olmalarıdır. Ayanın Rəsulzadə Fəridə, Rəsulzadə Sadiq adında bacısı və qardaşı da var. Fəridə Rəsulzadə 2013-cü il martın 24-də, Rəsulzadə Sadiq 2015-ci il noyabrın 1-də anadan olub. Ayan balaca bacı-qardaşları ilə çox mehribandır. Onların qayğısına qalır. Yuxarıda qeyd etdiyimiz kimi, Ayan müəllim olmaq istəyir.Mükəmməl savad almaqla, öz bacarığı ilə Azərbaycanın inkişafında yaxından iştirak edərək yaddaşda qalmağı düşünür.

Biz də jurnalımız adından həmsöhbətimizə gələcək işlərində uğur arzu edir, hər zaman uğurlu və faydalı olmağı diləyirik. Həmişə yaxşılardan olub, yaxşı əməllərlə tanınasan əziz Ayan!













edəcəkdir. Fəzilət bütün dərslərində aktivdir. O, daim əzmlə çalışır ki, dərslərini daha yaxşı oxuyaraq, ali məktəbə daxil olsun, təhsilini, təcrübəsini artırmış olsun. Əldə etdiyi nailiyyətlərə gəlincə, Fəzilət sınaq imtahanında birinci yeri tutaraq "Diplom"a layiq görülüb.

Müsahibimizin ailəsi 4 nəfərdən ibarətdir. Ailənin başçısı Abdullayev Elnur 1989-cu il iyulun 19-da anadan olub, orta təhsilli, su idarəsində rəngsaz işləyir. Anası Abdullayeva Aygün 1990-cı il noyabrın 10-da anadan olub gözəllik ustasıdır, amma hazırda övladlarının təlim-tərbiyəsi, təhsili ilə ciddi maraqlanır, bir ana kimi onların sağlam və gümrah böyüməsi üçün əlindən gələni edir. Hər iki valideynin övladları ilə bağlı istəyi onunla bağlıdır ki, onlar təhsilli və parlaq bir gələcəyə malik olsunlar. Fəzilətin bir bacısı da var. Onun adı Yağmurdur. Abdullazadə Yağmur 2014-cü il yanvarın 7-də anadan olub. O, bacısıyla çox mehribandır, onu çox sevir. Çalışır ki, özü ikinci sinifdə oxuya-oxuya beş yaşında olan bacısına hər şeyi, bütün bildiklərini öyrətsin. Onlar mehriban dostdurlar.

Fəzilət istəyir ki, gələcəkdə polis olsun. Özü qeyd edir ki, polis olaraq, oğruları, quldurları, cinayətkarları tutaraq ədalətə təslim etmək istəyir. Hətta daha qabağa gedib detektiv olmaq istədiyini də bildirdi. Ədalətin bərqərar olmasını istəyən həmsöhbətimizə bu çətin və şərəfli yolda uğurlar diləyirik. Ümid edirik ki, bütün çətinliklərə rəğmən, gələcəkdə bu məsuliyyətli peşənin öhdəsindən layiqincə gələcək və hər zaman uğur və nailiyyətləri ilə doğmalarının, müəllimlərinin fəxri olacaq.






# ƏLİZADƏ CƏNNƏT

## "Bu günün mütaliəsevər şagirdi, gələcəyin savadlı müəllimi"





**"Bu dünya bir qızıl kuzəyə bənzər, suyu gah şirindir, gah da ki zəhər"**

***(M.Gəncəvi)***

Elm öz sahibinə böyük zinətdir deyimi də səbəbsiz yerə deyilməyib. Elmsiz adam meyvəsiz ağac kimidir. Necə ki, bar verməyən ağac faydasız hesab olunur eləcə də insan. Gərək vaxtında yaxşı oxuyub bir peşə, sənət sahibi olasan ki, həm öz yerini cəmiyyətdə tuta, həm də məxsus olduğun cəmiyyətə, vətəndaşı olduğun ölkəyə xeyirin, faydan dəyə. Dünya elmində yaşanan inkişaf və tərəqqi bəşəriyyətin inkişafına, təkmilləşməsinə xidmət edir. Gərək bizim ölkənin gəncliyi, gələcəyi bu inkişafdan geri qalmaya.

Qəhrəmanımız Cənnət Əlizadə çox sadə, saf, təmiz qəlbli məktəblilərimizdəndir. Cənnətin həqiqətən, savadlı, istedadlı olmağı danılmazdır.

Əlizadə Cənnət Həbib qızı 2012-ci il 17 iyulda Sabirabad rayonunda dünyaya gəlib. Müsahibimiz, 2018-ci ildə Saatlı rayonu M.Əliyev adına Əlisoltanlı kənd tam orta məktəbində 1-ci sinfə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 1a sinfində təhsil alır. Məktəbə ilk addımlarını atan müsahibimiz, dərslərində çox fəaldır. Sevimli fənləri ana dili, informatika,












zın qəlbində isə bir başqadır. Ən böyük arzusu gələkdə rəssam -dizayner olmaqdır. Bunun üçün Şirvanda Rəsm Qalereyasında çalışan Çinarə müəllimdən rəssamlığın ilkin sirrlərini öyrənir. İstedadlı əl qabiliyyəti olduğundan maraqlı rəsmləri, təbiət mənzərələri, qrafika janrında rəngarəng işləri olur. O, 2017-ci ildə Şirvan şəhərində keçirilən "Fərqli ideyalar axtarışında" adlı sərgidə iştirak edərək "Fəxri Fərman"la təltif edilib. Boş vaxtlarında rəsm çəkməyi, dostları ilə birgə futbol oynamaqla və sosial şəbəkələrdə maraqlı məlumatlarla tanış olmaqla vaxt keçirməyi xoşlayır. Elvin məktəb tədbirlərində fəal iştirakçıdır.

Ailədə 4 nəfərdirlər. Atası Nurullayev Siyavuş Mebulla oğlu 1969-cu ilin fevralın 18-də Sabirabad rayonunun Osmanlı kəndində doğulub,orta təhsilli qaynaqçıdır. Qaynaqçı işləməklə ailəsini, övladlarını saxlayır. Onların xoşbəxt olması üçün çalışır. Anası Əzimova Bahar Zəkara qızı 1968 -ci il sentyabrın 15-də Füzuli rayonu Aşağıyağlıvəl kəndində anadan olub, orta ixtisas təhsilli evdar qadındır. Qardaşı Nurullayev Anar Siyavuş oğlu 2001-cı il yanvarın 19-da Sabirabad rayonu Osmanlı kəndində anadan olub. Hal hazırda hərbi xidmətdədir. Vətənin


Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi
Şirvan Dövlət Rəsm qalereyası

FƏXRİ FƏRMAN

"Fərqli ideyalar axtarışında" adlı sərgidə fəal iştirakına görə

TƏLTİF EDİLİR.

Elvin Nurullazadə

Şirvan Dövlət Rəsm Qalereyasında Direktor vəzifəsini icra edən C.Vəliyeva

03 avqust 2017-ci il

keşiyini çəkir, onu düşməndən qoruyur. Hərbi xidməti başa vurduqdan sonra Anar da oxumaq, təhsilini davam etdirmək istəyir.

Redaksiya heyətimiz adından Elvini təbrik edir, ona dərslərində uğurlar arzulayırıq. Yüksəklərdən gələn xoş sorağı ilə hər zaman valideynlərinin və müəllimlərinin fəxri olsun!

# Nurullazadə Elvin

## "Gələcəyin istedadlı və yaradıcı rəssam-dizayneri"







**Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür.**

**(Platon)**

Həqiqətən də, bilik qaranlıq yollarda insana işıq bəxş edən bir çıraqdır.Gənclikdə günü hədər keçirmək olmaz. Çalışıb gənclikdə daha çox oxumaq, bilik əldə etmək lazımdır ki, gənclikdə qazanılan bilik qocalıqda müdriklik deməkdir. Bilik insana insanlıq, özünü əvəzsiz müstəqil varlıq olaraq təsdiq etmək üçün gərəkdir. İnsanlıq tələbi insanı vətənə sevgi üstə kökləyir. Biz gərək elmi biliklərimizi daha dərindən mənimsəyək ki, öz peşəmizin güclü mütəxəssisinə çevrilək, çünki respublikamızın rifahı bu günün savadlı şagirdi, sabahın yüksək ixtisaslı gənc mütəxəssislərindən asılıdır. Növbəti yazımızda gözəl bilikli, ağıllı, savadlı övladlarımızdan biri olan Elvindən söhbət açacağıq.

Nurullazadə Elvin Siyavuş oğlu 15 iyun 2002-cü ildə Sabirabad rayonun Şıxsalahlı kəndində sadə, zəhmətkeş bir ailədə dünyaya gəlib. Orta məktəb illəri üçün tələsən Elvin hər bir şagird kimi yaşı çatan kimi arzusuna qovuşur, yəni o, 2009 -cu ilin tədris ilindən etibarən Sabirabad rayonu Şıxsalahlı kənd tam orta məktəbinin 1-ci sinifinə getməklə təhsil həyatına start verir. Hazırda həmin məktəbin 10-cu sinif şagirdidir. Elvin bütün fənləri sevərək diqqətlə oxuyur və sinfin əlaçı şagirdlərindəndir. Xüsusi rəğbət bəslədiyi fənlər isə ingilis dili və riyaziyyat dərsləridir. Bütün müəllimlər onun üçün qiymətli və şərəflidir. Arifə müəllim, Dünyaxanım müəlliminin yeri bu balamı-










sevimli müəllimi isə Ülviyyə müəllimdir. Boş vaxtlarını səmərəli keçirən Cənnət, kitab oxumağı xoşlayır.

Cənnətin ən böyük arzusu müəllim olmaqdır. Çünki, müəllimlik sənəti çox müqəddəs bir sənətdir. Gələcəkdə müəllim olmaq üçün o, müəllimlərinə diqqətlə qulaq asır, onların verdiyi tapşırıqları səylə yerinə yetirir. Daxili dünyası olduqca zəngin olan müsahibimiz, seçimində çox qərarlıdır. Əlizadə Cənnətin maraqlı əl qabiliyyəti var və o qeyri-adi əl işləri ilə diqqət çəkir.



Cənnətgilin ailəsi 4 nəfərdən ibarətdir. Atası Əliyev Həbib Məzahir oğlu 1982-ci il sentyabrın 28-də anadan olub. Ali təhsillidir, Saatlı rayonunda Polis Şöbəsində çalışır. Anası Əliyeva İradə Bahadır qızı 1994-cü il yanvarın 1-də anadan olub, orta təhsilli, evdar qadındır. Hər iki valideyn çalışır ki, övladlarının taleyi parlaq və uğurlu olsun. Qardaşı Əlizadə Məzahir 5 yaşındadır. O, 2014-cü il sentyabrın 28-də anadan olub. Cənnət balaca qardaşı ilə gündəlik məşğul olur, ona öz dərslərindən öyrətməyi çox xoşlayır. Axı Cənnət gələcəkdə müəllim olmaq istəyir. Çalışır ki, bildiklərini daim ona da öyrətsin.

Cənnətin ən böyük idealı anasıdır. Anasını çox sevən müsahibimiz, onunla fəxr edir, bütün xarakter, xüsusiyyətləri ilə ona bənzəməyə çalışır.

Biz də jurnalımız adından Cənnətə səadət dolu günlər arzu edirik. Qoy, o mələk simandan gülüş heç vaxt əskik olmasın. Uğurları ilə daim valideyn və müəllimlərinin fəxri olsun!



# ALIŞANOVA NURAY

## "Gələcəyin uşaq həkimi"





**”Ağıla fikir gələr, başa hadisə”**

***(Əbu Turxan)***

Nə qədər ki, həyatda davamiyyət var, yeni körpələr doğulacaq, böyüyəcək və hərəsi bir peşənin sahibi olacaq. Zirvəyə çatmaq insan üçün qürurverici olsa da çətinlikləri var. İnsan bütün maneələri dəf edib, əzmlə zirvəyə doğru addımlamağı bacarmalıdır. Nuray da öz məqsədinə çatmaq üçün əzmlə çalışan məktəblilərimizdəndir.

Alışanova Nuray Ellər qızı 2006-cı il yanvarın 30-da Saatlı rayonunun Qıraqlı kəndində dünyaya gəlib. Ailəsinin ilk sevinci olan Nuray, gəlişi ilə hamını sevindirib.

2012-ci ildə Alı Mustafayev adı-







# QULUYEVA AYSEL

## "Zəhmətkeş ailənin əlaçı və istedadlı qızı"







**”Mənə bir hərf öyrədənin köləsi olaram”**

***Həzrəti Əli***

Din, əqidə, məslək uğrunda uca şəhidlik zirvəsinə yüksələn Həzrəti Əlinin öyrədənin-müəllimin əməyini belə yüksək dəyərləndirməsinin səbəbini anlamaq üçün ilk növbədə müəllimlik peşəsinin mahiyyətinə nəzər salmaq gərəkdir.

Dünyada gözəl, nəcib peşələr çoxdur. Fəqət bütün peşələrin fövqündə dayanan müqəddəs bir peşə də var. Bu, müəllimlikdir. Həkim də, mühəndis də, kosmonavt da seçdikləri sənətin sirrlərini məhz müəllimdən öyrənirlər. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır. Bu xəzinəyə daxil olanlar həyatın enişli-yoxuşlu yollarında büdrəmir, öz biliyi və əməlləri ilə cəmiyyətin inkşafına töfhələr verirlər. Elə buna görə də dünyada müəllim əməyinin bənzəri yoxdur. Bu məqaləmiz isə gələcəkdə uğurlu, savadlı müəllimlərdən olmaq istəyən Aysel qızımız haqqındadır.

Quluyeva Aysel Emin qızı 21 may 2006-cı il tarixində Saatlı rayonunun Qıraqlı kəndində dünyaya gəlib. 2011-ci ildə Saatlı rayonun Alı Mustafayev adına Qıraqlı kənd tam orta məktəbin birinci sinfinə qədəm qoyan Aysel hazırda həmin məktəbin VII sinifdə təhsil alır. Dərslərini çox yaxşı oxuyan Aysel, məktəb əlaçılarındandır. Onun uğur və nailiyyətlərinə gəldikdə isə ingilis dili fənni üzrə keçirilən imtahanda iştirak edərək yüksək yer tutmaqla ”Tərifnamə” ilə təltif edilib. Bütün fənn və müəllimlərini sevən Aysel üçün ingilis dili və riyaziyyat onun sevimli fənləridir. Anarə, Nazlı və Türkanə adlı müəllimləri isə onun sevimli müəllimləridir. Boş vaxtlarını mütaliəyə ayıran həmsöhbətimiz, daim öz üzərində çalışan şagirdlərdəndir. Aysel dərslərini yaxşı oxumaqla yanaşı, həm də istedadlı bir qızdır. Onun maraqlı əl işləri olur. Hətta məktəb nəzdində təşkil olunan tədbir və sərgilərdə aktiv iştirak edir. İndi isə bir qədər Ayselin ailəsindən bəhs edək.

Ayselin atası 44 yaşlı Quluyev Emin orta təhsilli Qarabağ əlili, təqaüdçüdür. Kənd təsərrüfatı ilə məşğul olaraq ailəsini və övladlarını saxlayır. Halal zəhməti ilə dolanmağı əsas tutan ata istəyir ki, övladları ağılllı və təhsilli olsun. Daim onların başını sağlam əməllərlə ucaltsın. Anası 35 yaşlı Quluyeva Esmira evdar qadındır, orta təhsillidir. Bir ana kimi övladlarının təlim-tərbiyəsi ilə ciddi məşğul olur, onların təhsili ilə maraqlanır. Zabitə və Fatimə adında iki bacısı var. Zabitə 8 -ci sinifdə, Fatimə isə 5-ci sinifdə oxuyur. Qardaşının adı Vəkildir. Qardaşının 4 yaşı var. Ayselin idealı-anasıdır, qəlbində onun yeri tam fərqlidir. Bütün xüsusiyyət və xarakterinə görə ona bənzəmək istəyir.

İnanırıq ki, bu yolla davam etsə, Aysel istədiklərinə nail olacaqdır. Arzulayırıq ki, həyatda atdığın heç bir addıma görə peşman olmayasan. Həyatda hər zaman üzün gülsün, taleyin parlaq olsun gözəl və ağıllı Aysel bala!







# Abbaszadə Sənan

## “Ailəsinin fəxri, dərslərində birinci”







**“Hər bir alimin öz elmi işlərinin nəticəsini kütləvi surətdə, hətta başqa sahələrdə çalışan alimə çox ciddi və əyani şəkildə şərh etməsi alimliyin əsas keyfiyyətlərindən biridir. Əgər hər hansı alim bu işin öhdəsindən gələ bilmirsə, deməli o, öz işini heç özü də başa düşmür”**
***(Azad Mirzəcanzadə)***

Elm insana müəyyən bir dünya görüşü meydana gətirmə, müəyyən qanunlara görə düşünmə, dünyaya elmin təmin etdiyi məlumatlara görə baxma imkanı verir. Yəni elm insanlara elmi bir zehniyyət qazandırır. Elmi zehniyyət isə, insanlara dürüst və tərəfsiz olmağı, qarşılaşılan problemləri səbirli, detallı və uzaq fikirli bir şəkildə ələ almağı öyrədir ki, bunlar əxlaq və ərdəmin ən əhəmiyyətli xüsusiyyətləri arasındadır.



Elmi zehniyyətin, insanların daha ərdəmli və yüksək əxlaqlı olmalarını təmin edəcəyini düşünmək boş bir xəyal deyil. İnsan sahib ola biləcəyi elmi zehniyyət yoluyla həm fərdi yaşayışını və həm də ictimai yaşayışını təşkil edə bilər.Təhsil aldığımız məktəblər bizə daim yeni ,əlavə məlumatlar öyrədir. Bunun əsas səbəbi bizi savadlı mütəxəssis kimi yetişdirməkdən əlavə həmçinin digər sahələrdə də savadlı mütəxəssis olmağımız üçündür.

Jurnalımızın növbəti qəhrəmanı savadlı və ağıllı şagird olan Sənandır. Bu yazı onun haqqındadır.

Abbaszadə Sənan Mail oğlu 2005-ci il 25 iyul tarixində Sabirabad rayonunda dünyaya göz açıb. 2011-ci ildə ilk dəfə məktəbə qədəm qoyan Sənan Sabirabad rayon Nizami Gəncəvi adına 5 saylı tam orta məktəbin 8b sinif şagirdidir. Bu ağıllı şagird məktəbə başladığı ilk gündən etibarən dərslərini məsuliyyətli şəkildə oxuyur və hazırlayır. Onun ən çox sevdiyi fənn Azərbaycan tarixi fənnidir. Müəllimlərinin mehriban,savadlı olduğunu vurğulayan Sənan Gülxara müəllimini çox sevdiyini bildirib. Bilikli və savadlı olan bu ağıllı oğlan məktəb üzrə keçirilən sınaq imtahanında iştirak edərək birinci yerə çıxmış və ”Fəxri Fərman”a layiq görülmüşdür. O, əmindir ki, bu uğurunu hər zaman davam etdirəcək. Sənan gələcəkdə mühasib olmaq istəyir. Mühasib, mühasibat uçotu üzrə mütəxəssis,qanunvericiliyə əsasən uçot sistemi üzrə işləyən şəxsdir.Mühasib, maliyyə vəziyyətinə nəzarət edir,dövlət orqanı və şirkət rəhbərliyi qarşısında cavab verir,dövlət vergilərini vaxtında və dəqiq ödəyir.

O, boş zamanlarında dərslərini oxuyur, tarix fənnini təkrar eləyir, eyni zamanda telefonda müxtəlif zehni və əyləndirici oyunlarla məşğul olmağı çox sevir.

Sənanın ailəsi 4 nəfərdən ibarətdir. Atası Abbasov Mail 1982-ci il yanvar ayının 14-ü anadan olub, orta təhsilli, sürücüdür. Anası Abbasova Aytən 1987-ci il iyul ayının 24-ü anadan olub, orta təhsilli evdar xanımdır. Hər iki valideynin istəyi övladlarının sağlam və xoşbəxt olması və bütün arzu-istəklərinə çatmasıdır. Onlar Sənanı gələcəkdə peşakar, öz işinin əhli olan bir gənc mütəxəssis kimi görmək istəyir. Sənanın bacısı var. Abbasova Məryəm 2008-ci il 10 oktyabr tarixində anadan olub, 5-ci sinifdə oxuyur. Məryəm də olduqca, çalışqan və savadlı bir şagirddir.

Kollektivimiz adından Sənana hər zaman uğur və nailiyyətlər diləyir, gələcəkdə peşəkar mühasib olmağını arzu edirik.







na Qıraqlı kənd tam orta məktəbinə 1-ci sinfə gedib. Hal-hazırda həmin məktəbin VII sinfində oxuyur. Sevimli fənləri coğrafiya, biologiyadır. Sevimli müəllimləri isə Birdanə və Anarə adlı müəllimləridir. Dərslərində fəal olan müsahibimiz, ingilis dili fənni üzrə ”Diplom” ilə mükafatlandırılıb. Boş vaxtlarında romanlar, poemalar oxuyan həmsöhbətimiz, mütaliəni çox sevir. O,-düşünür ki, mütaliə onun dünyagörüşünə, ədəbi düşüncə və təxəyülünə eləcə də nitq qabiliyyətinə müsbət təsir edir.



Gələcəkdə uşaq həkimi olmağ istəyir. Nuray düşünür ki, gəncliyimiz uşaqlardan asılıdır, uşaqlar isə sağlam olmalıdır ki, sağlam gəncliyimiz olsun. Sağlam gənc nəsil, sağlam da gələcək nəsil yetişdirir.

Bu gözəl qızın ailəsi ilə də tanış olaq. Atası Alışanov Ellər Orucəli oğlu 1977-ci il 25 dekabr təvəllüdlüdür, kənd təsərrüfatı ilə məşğul olur. Anası Alışanova Vəfa Şamil qızı 1982-ci il 29 sentyabr təvəllüdlüdür, saç ustasıdır. III sinifdə oxuyan bacısı Alışanova Nurcan 2010-cu il 6 noyabr tarixində doğulub. Qardaşı Alışanov Rza 2017-ci il mayın 13-də doğulub. Nuray bacı-qardaşı ilə çox mehribandır.

Müsahibimizin bir məşğuliyyəti daha var. O, marka toplamağı çox sevir. Həyatdakı idealı müəllimi Anarə Şirinlidir.

Biz də ənənəmizə əsasən, Nuray qızımıza, bütün arzularının həyata keçməyini, müəllimlərinin və valideynlərinin etimadını doğrultmağını arzu edir, ona parlaq gələcək diləyirik.

# ƏSƏDOV RAMAZAN

## "Hərbiçi olmaq istəyən azmkar və musiqiçi məktəbli"





**"Az bildiyini başa düşmək üçün çoxlu oxumaq lazımdır"**

***(Mişel Monten)***

Elmin mahiyyətinin anlaşılmasında onun yaranmasının zəruri amillərinin bütün tarixi sübut edir ki, müasir dövrə qədər insanın ən mühüm vəzifəsi mövcudluq - yaşamaq uğrunda mübarizədir. Bəşəriyyət təbii və sosial hadisələri proqnozlaşdırmaq, öz xeyri üçün onlara təsir göstərmək arzusu ilə böyük işlər görmüşlər. Ona görə də insanlar qarşıya qoyduqları vəzifələri yerinə yetirməkdən ötrü səbəb- nəticə əlaqələrini, yaxud da təbiət və cəmiyyətdə mövcud olan qanunları öyrənmək zərurəti qarşısında qalmışdır. Buna görə də insanlar qarşıya qoyulan məqsədə daha inadla çatmağa çalışırlar.

Bugünkü inadlı qəhrəmanımızdan biri də Əsədov Ramazan Gəray oğludur. O, 2009-cu ilin sentyabr ayının 21- də Bərdənin Xanağalı kəndində dünyaya göz



açıb. O, 2015-ci ildə Bərdə şəhər Akademik Zərifə Əliyeva adına məktəb-liseyin 1-ci sinfinə daxil olub. Hal-hazırda həmin məktəbin 4c sinif şagirdidir. O, sinifdə müəllimlərə, şagirdlərə xüsusi hörmətlə yanaşır. Onun sevimli müəllimləri Püstə müəllim və Afaq müəllimdir. Həmin










müəllimi kimi pedaqoji fəaliyyətlə məşğuldur. Bir ziyalı ata kimi Nigar başda olmaqla övladlarına ən böyük arzusu sağlam və xoşbəxt bir talenin sahibi olmaları və təhsilli olaraq hər şeyə öz bilik və bacarıq imkanlarının sayəsində nail olmağı arzu edir. Anası Sadıqova Firuzə Azad qızı 1991-ci il avqustun 29-da Laçın şəhərində anadan olub, orta ixtisas təhsilli evdar xanımdır. İbtidai sinif müəllimi kimi əvvəllər çalışsa da hazırda uşaqlarına görə evdar qadın olaraq onların təlim-tərbiyəsi, təhsili ilə maraqlanır. Qardaşı Sübhan Sadiq Bəxtiyar oğlu 5 yaşlıdır, bacısı Sehri Sadiq Bəxtiyar qızı isə 1 -ci sinif şagirdidir. O da dərslərini yaxşı oxumağa çalışır və bilmədiklərini daim bacısından öyrəndir.

Redaksiya heyətimiz adından Nigarı təbrik edir, ona gələcək həyatında və işlərində uğurlar arzulayırıq. Daim valideynlərinin fəxri olsun, uğur və nailiyyətləri ilə doğmalarını sevindirsin.






# Sadıqzadə Nigar

## "Hərtərəfli istedadlı və əlaçı şagird"





**Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca rütbədən biliniz, fəqət,**
**Alimin rütbəsi ucadır əlbət.**
**(Nizami Gəncəvi)**

Təhsil və bilik insan həyatında aparıcı rol oynayır. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır. Elmin inkişafı bəşəriyyətin inkişafına təkmilləşməsinə xidmət edir. Bu gün elmi öyrənməyə çalışan istedadlı və bacarıqlı gənclərimiz var. Bu istedadlı qabliyyətli və savadlı şagirdlərimizdən biri də Nigar balamızdır.

Sadıqzadə Nigar Bəxtiyar qızı 2009-cu ilin 9 iyununda Bərdə şəhərinin Qarabağ qəsəbəsində ziyalı ailəsində dünyaya gəlib. O, 2015-ci ildə Bərdə şəhəri 8 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. Hazırda həmin məktəbin 4-ci sinif şagirdidir. Nigar balamız dərslərini əla oxuyur, sinfinin əlaçı və savadlı şagirdlərindən biridir. Nigarın Azərbaycan dili fənninə marağı daha çoxdur. İbtidai sinif müəllimi Hacıyeva Mənsurə müəllim və ingilis dili müəllimi Aygün müəllim onun üçün dəyərlidir. Nigar sadəcə dərslərini yaxşı oxuyan bir şagird deyil, onun həmçinin inşa, esse yazmaq kimi qabiliyyəti var. Onun qələmi müxtəlif mövzularda maraqlı esselər, inşalar yazır və onun qurduğu cümlələr özünəməxsusluğu ilə diqqət çəkir. Şeir müsabiqələrində iştirak edərək intonasiyalı şeir demək istedadına malikdir. O, ingilis dili fənnindən keçirilən sınaq imtahanında fərqləndiyinə görə "Tərifnamə" ilə, həmçinin "Çağdaş" kursunun təşkil etdiyi müxtəlif fənnlər üzrə keçirilmiş sınaq imtahanlarında iştirak edərək fərqlənməsinə görə 8-yaxın "Təltifnamə" ilə mükafatlandırılıb. Hətta təhsildə göstərdiyi uğurlarına görə "Fəxri Fərman"la da təltif edilib. Nigarın gələcəkdə ən böyük arzusu həkim olmaqdır. Boş vaxtlarını əsasən bədii kitab oxumaqla keçirir. Xüsusilə də dünya uşaq ensklopediyasında nümunələr, müxtəlif yerli və xarici ədəbiyyatdan nağıllar oxumaqla həm dünyagörüşünü artırır, həm nitq qabiliyyətini artırır. Nigar həm də şahmatı da əla səviyyədə bilir. Atasının verdiyi məlumata görə 2-ci sinifdən etibarən Nigar məktəb nəzdindəki şahmat dərnəyinə getməklə şahmatı yaxşı öyrənib. Həmçinin Nigarın maraqlı əl qabiliyyəti var, boş vaxtlarında o rəsmlər çəkməklə xəyal dünyasını gəlişdirir.

Nigarın ailəsi 5 nəfərdən ibarətdir. Atası Sadıqov Bəxtiyar Boris oğlu 1986-cı il aprelin 21-dən Laçın şəhərində anadan olub. Ali təhsilli ingilis dili müəllimidir. Laçın rayon Peşə məktəbində ingilis dili







müəllimlərini Ramazan şagirdlərə qarşı mehriban və səmimi olmalarına görə sevir və o, dərsləri ilə yanaşı 3 ildir ki, musiqi məktəbinə gedərək orada tar sinfində oxuyur. Ramazan tar musiqi alətində ifa etməyi bacarır və milli musiqi alətlərimizin öyrənərək yaşadılmasını istəyir. O,əlaçı olmaqla yanaşı, həm də tar ifa etmək bacarığını özünə uğur sayır. Ramazan gələcəkdə vətənimizə layiqli bir hərbiçi olmaq istəyir, vətəninə, xalqına layiqli şəkildə xidmət etmək niyyətindədir. Ramazan asudə vaxtlarında tar ifa edir, kompyuterdə maraqlı oyunlar oynayır. Ramazanın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Əsədov Gəray Xəlil oğlu 1968-ci il iyulun 3- də anadan olub. Hal-hazırda AMEA Respublika Seysmoloji Xidmət mərkəzinin Bərdə Seysmoloji Stansiyasının müdiri vəzifəsində çalışır. O, işlərindən vaxt tapdıqca övladlarına və ailəsinə ayırır. Bir ata kimi çalışır ki, övladlarına layiqli ata olub onların gələcək həyatının uğurlu olması və yüksək təhsil almaları üçün əlindən gələni əsirgəməsin.

Anası Əsədova Pərvanə Seyfəddin qızı 1985-ci ilin martın 28- də Bərdə rayonun Kətəlparaq kəndində anadan olub, orta təhsilli evdar qadındır. Vaxtının çox hissəsini övladlarına, onların təhsil və tərbiyə məsələlərinə ayırır. Hər valideyn kimi o da övladlarının gələcəyi üçün əlindən gələndən daha çoxunu etməyə çalışır. Və bunu bir ana kimi bacarır. Ramazanın 11 yaşında Heydər adında bir qardaşı var ki, o, Ramazana dərslərində köməklik edir, bildiklərini daim onunla bölüşür. Həmçinin Ramazanın 7 yaşlı Selcan və 2 yaşlı Banuçiçək adında iki bacısı var. Gələcəkdə hər zaman Ramazanın bacılarının yanında olacağına və dərslərində onlara kömək edəcəyinə inanırıq.

Biz də redaksiya heyəti adından Ramazana gələcək həyatında uğurlar arzu edir və taleyinin parlaq olmasını diləyirik. Həyat yolunda elm və bilik daim onun yardımçısı olaraq bütün uğurlarının əsas səbəbkarı olsun. Hər zaman da müəllim və şagirdlərinin fəxri olsun!

# GÖZƏLOVA GİLƏ

## "Özü birinci, sinifdə də həmişə olur birinci"






**"Uğur gedilən yoldur, çatdığın məkan deyil"**

***(Ben Svitland)***

Həyatda uğur qazanmaq üçün ilk növbədə, gələcəyə yönəlmiş hədəf seçməliyik. Daha sonra həmin məqsədə aparan yaxın hədəfləri müəyyənləşdirmək lazımdır. Özümüzə qısamüddətli hədəflər seçməklə, daha uzaq hədəflərə çata bilərik. Beləliklə, həyat strategiyamızı və taktikamızı müəyyən etmiş oluruq.

Hədəf seçilən andan insanın həyat tərzi dəyişir, daha düzənli hala düşür. Hədəfi seçərkən vacib məqamlardan biri də realist olmaqdır. Reallıqdan uzaq olan hədəf arzu və xülyadır. Hədəfə gedən yol çox zaman təhsildən keçir. Hansı peşəyə yiyələnməyin bir o qədər önəmi yoxdur, önəmli olan hansı səviyyədə yiyələnməkdir. Uğurun daha bir sirri isə özünəinamdır. Müsahibimiz olan qızımızın az yaşı olmasına baxmayaraq, indidən dərslərini çox yaxşı oxumaqla hədəfə doğru olan yolda hələ ilk addımlarını atır. Bu yolda inamla irəliləyib böyük uğurlar qazanmaq diləyi ilə Gilənin tərcümeyi halına nəzər salaq.

Gözəlova Gilə Cəlal qızı 2012-ci ilin 10






# Soltanova Günel

## "Təhsilini çox sevən,dərslərinə diqqət yetirən əlaçı şagird"





**"İnsanın öz düşüncəsi ən etibarlı köməkdir"**

***(J.Fabrisi)***

Məktəb təhsilinin məzmununu formalaşdırmaq üçün ənənəvi olaraq sosial və elmi nailiyyətlər sistemi böyük əhəmiyyət kəsb edir. Təhsilin məzmununda elmi nailiyyətlərin implikasiyası sahəsində aparılan tədqiqatlar göstərir ki, yeni elmi kəşf və ya yeni sosial ideyanın meydana gəlməsi ilə onun məktəbdə sistemli öyrənilməsi arasındakı vaxt müddəti durmadan azalır. Pedaqoji imkanlar sistemi təhsilin məzmununa məlumatların daxil olmasına yol vermək və ya ona qadağa qoymaq rolunu oynayan tənzimləyicidir. Başa düşmək, anlamaq, mənimsəmək üçün müəyyən inkişaf səviyyəsi lazımdır.Orta ümumtəhsil məktəbində təhsilin məzmununa verilən tələblər təhsilin inkişafı üzrə dövlət strategiyası ilə müəyyən olunur. Jurnalımızın növbəti qəhrəmanı Soltanova Günel Elnur qızıdır. O, savadlı və məsuliyyətli bir şagirddir.

Soltanova Günel Elnur qızı 2008-ci il 28 may tarixində Saatlı rayon Novruzlu kəndində anadan olub. Hər bir şagird kimi Günel də orta məktəbi uğurla bitirdi. O,2015-ci ildə Sabirabad rayon Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbdə təhsil həyatına qədəm qoyub. Bu gözəl bala hal-hazırda həmin məktəbin 4d sinifində oxuyur. Müasir cəmiyyətdə məktəb uşaqların təhsil almaq hüquqlarını təmin etməkdə əsas rol oynayır. O, həm də uşaqların təlim və tərbiyəsi ilə məşğul olur. Günel çox ağıllı və savadlı bir qızdır.Onun sevdiyi fənlər təsviri incəsənət və Azərbaycan dili fənləridir. Günel doğma ana dilinə bağlı olan bir qızdır.Çalışır ki, onun bütün incəliklərini, qramatik norma və üslüblarını öyrənsin. Günelin ən sevimli müəllimi isə sinif rəhbəri olan Afət müəllimdir. Müəllimi deyir ki,o, çalışqan və məsuliyyətli bir şagirddir. Onun yaxşı rəsm çəkmək qabiliyyəti də var. Günelin gələcəyinə dair ən böyük arzusu müəllim olmaqdır. Müəllim şagirdə elmin sirlərini öyrədən ona düzgün və doğru yolu göstərən bir şəxsdir. Mustafa Kamal Atatürk müəllimlik haqqında belə deyib-"Müəllim şam kimidir, özü yanıb tükənərkən ətrafını işıqlandırır". Öz müəllimlərindən örnək götürən Günel də,gələcəkdə məhz onlar kimi peşəkar və qayğıkeş bir pedaqoq olacağına inanır.

Bu ağıllı bala boş vaxtlarını rəsm çəkərək dəyərləndirdiyini deyib. Həmçinin boş vaxtlarında da dərsləri ilə məşğul olur.

Soltanovlar ailəsi 4 nəfərdən ibarətdir. Atası Soltanov Elnur Rasim oğlu 1983-cü il 27 oktyabr tarixində anadan olub, orta təhsilli sürücüdür. Bir ata kimi çalışır ki, övladlarının həyatı uğurlu və təminatlı olsun. Anası Soltanova Zülfiyyə Ağamalı qızı 1987-ci il avqustun 8-i anadan olub, orta təhsilli, evdar qadındır. Valideynləri övladlarına daim dərslərində köməklik göstərdiklərini, hər zaman onları dəstəklədiklərini bildirib. Günelin bir qardaşı var. Soltanov Elgün Elnur oğlu 2009-cu il 31 oktyabr tarixində anadan olub. Bacısı ilə eyni sinifdə təhsil alan Elgün dərslərini yaxşı oxuyur.

Redaksiyamız adından Günelə gələcək həyatında bol uğur və nailiyyətlər arzu edirik. Ümid edirik ki, savadı və bacarığı ilə qazanacağı bütün biliklər onun gələcək həyatında uğura aparacaq əsas mayak olacaq!

# Soltanov Elgün

## "Poeziyaya bağlı şair ruhlu əlaçı məktəbli"





**Şair xalqın səsi,əsrin səsidir,**
**Vətənin ağsaçlı sərkərdəsidir,**
**Hökmüylə ordular ayağa qalxır,**
**Şerinin nəhrində daşlar da axır.**

***(M.H.Şəhriyar)***

Ölkənin iqtisadi qüdrəti artdıqca təhsil sektoru ilə yanaşı, milli elmimiz də öz inkişaf mərhələsini yaşayır. Elm ictimaiyyətinin nümayəndələrini fəxrlə yada salırlar ki, bu gün Azərbaycan elmi islahatlarla müşahidə olunan yeni inkişaf yoluna qədəm qoyub. Belə ki, Azərbaycan elmində müşahidə olunan müsbət tendensiyalar nüfuzlu beynəlxalq reytinqlərdə əks olunan konkret rəqəmlərlə təsdiq olunur. Alimlər qətiyyətlə deyirlər ki, hazırda biliklər iqtisadiyyatının qurulması baxımından strateji əhəmiyyətli innovativ fəaliyyət sahələrində də nəzərə çarpacaq uğurlarımız var. Bu, uğurları Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması və səmərəli şəkildə fəaliyyətə başlaması daha da artırır. Elmli bir gələcəklə gələcəyə addımlamaq istəyən savadlı şagirdlərimizdən biri də Soltanov Elgün Elnur oğludur.

Soltanov Elgün Elnur oğlu 2009-cu il 31 oktyabr tarixində Saatlı rayonun Novruzlu kəndində sadə bir ailədə anadan olub. Elgün 2015-ci ildə Sabirabad rayon Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbə yollanıb. O, indi bu məktəbin 4d sinifində təhsilini uğurla davam etdirir. Məktəb ilkin, əsas və tam orta təhsil üçün tədris ocağıdır. Burada fəaliyyət göstərən müəllimlər şagirdlərin yaxşı təhsil almağı üçün əllərindən gələni əsirgəmir. Bu ağıllı bala da, ən sevimli müəlliminin Afət müəllim olduğunu bildirib. Onun həvəslə oxuduğu fənn isə həyat bilgisi fənnidir. Elgün dərslərini vaxtı-vaxtında hazırladığını deyir və dərslərini yaxşı oxuyan əlaçıdır. Elgün həmçinin şeir yazmaq istedadı ilə seçilir. Şeirə olan həvəsi onda gələcəkdə şair olmaq istəyi yaradıb. Ölkəmiz tarix boyu dahi şairlər yetişdirib. Bizim şairləri başqa millətlər də tanıyır. Bunlar - Nizami Gəncəvi, Məhəmməd Füzuli, Vidadi, Vaqif və digər dühalardır. Onlar öz vətənlərinin həqiqi vətəndaşları olmuş və xalq qarşısında öz borclarını vicdanla yerinə yetirmiş böyük şəxsiyyətlərdir. Elgün də bir gün bu şairlər kimi öz şeirləri ilə məşhur olacağına inanır.

O, boş vaxtlarını dərslərini oxumağa və şeir yazmağa sərf etdiyini deyir.Bununla o bir rahatlıq tapır və mənən, ruhən dincəlir.

Elgünün ailəsi 4 nəfərdən ibarətdir. Atası Sultanov Elnur Rasim oğlu 1983-cü il 27 oktyabr tarixində anadan olub, orta təhsilli, sürücü işləyir. Anası Sultanova Zülfiyyə Ağamalı qızı 1987-ci il avqustun 8-i anadan olub, evdar qadındır. Hər iki valideynin istəyi övladlarının sağlam, xoşbəxt, təhsilli olmaları və faydalı bir ömür yaşamalarını arzu edirlər.

Onun gözəl bir bacısı var. Soltanova Günel Elnur qızı 2008-ci il 28 may tarixində anadan olub, 4-cü sinifdə təhsil alır, yəni bacı-qardaş eyni sinifdə təhsil alırlar. Bu onların birgə təhsil alıb oxumasına və maariflənməsinə müsbət təsir göstərir.

Jurnalımız adından Elgünə dərslərində bol uğur arzulayır və parlaq bir gələcək diləyirik. Biz inanırıq ki, Elgünün də şeirləri bir gün dillər əzbəri olub, bütün el obanı dolaşacaq.





oktyabrında Saatlı rayonunun Bəylər kəndində dünyaya göz açıb. 2018-ci ildə məktəb həyatına qədəm qoyan qızımız, hal-hazırda Mamed Əliyev adına Əlisoltanlı kənd tam orta məktəbinin 1a sinfində təhsil alır. Amma Gilə bundan əvvəl beş yaşında rayonun Bəylər kəndində bir illik məktəbəqədər hazırlıq mərhələsi keçib. Bu da onun zehni inkişafına, dünyagörüşünə müsbət təsir edib ki, məhz bu fərqi artıq birinci sinifdə oxuyanda özü hiss edir. Dərslərini çox yaxşı oxuyan müsahibimiz ana dili, informatika fənlərini çox sevir. Ülviyyə xanım Gilənin sevimli müəllimidir. Ona olan sevgisindən dolayı, Gilə gələcəkdə bu peşəyə yiyələnmək arzusundadır. Bunun üçün o, çox çalışır, boş zamanlarını da dərslərinə sərf edir. Müəllim onun üçün ən şərəfli və ləyaqətli peşədir. Onun dərs qiymətlərində bir dördü, digərlərində isə aldığı qiymətlərin hamısı əladır. Dərslərindən başqa heç bir hazırlığa getməyən Gilənin gimnastikaya, maraqlı idman hərəkətlərinə, rəqsə və rəsm çəkməyə böyük marağı və həvəsi var. Gilə qızımız asudə vaxtlarında maraq dairəsində olan bu məşğuliyyətlərlə vaxt keçirməklə yanaşı, həm də müxtəlif nağıl kitabları oxuyur, ingilis dili üzərində hazırlaşır. Baxmayaraq, birinci sinifdə oxuyur, ancaq ingilis dilindəki bilgisi yaşından çoxdur.






Həmsöhbətimizin atası Gözəlov Cəlal Rafiq oğlu 1981-ci il martın 4-də anadan olub, orta təhsilli, kənd təsərrüfatı ilə məşğuldur. Anası Gözəlova Elşanə 1987-ci il yanvarın 8-də anadan olub, evdar qadındır. Gilənin bir bacısı var. Onun adı Arzudur. Gözəlova Arzu Cəlal qızı 2009-cu ilin avqustun 17-də dünyaya gəlib. Bacılar bir-biri ilə çox mehribandırlar. Hər iki valideyn övladlarının sağlam və xoşbəxt, təhsilli olmasını istəyir.

Gilənin həyatda idealı atasıdır. O, atasını çox sevir, ona bənzəmək arzusundadır.

Sonda, dərgimiz adından hələ kiçik olsa belə hədəfini indidən seçən ağıllı qızımıza uğurlar arzulayırıq. Ən əsası, hansı sahədə olur olsun şanslı şəxslərdən olmasını arzu edirik. Daima bilik və elmi ilə böyük uğur və nailiyyətlər əldə edib müəllim və doğmalarının fəxri olsun!

# NOVRUZZADƏ GÜNƏŞ

## "Çalışqan, ağıllı və savadlı məktəbli"





**“Ömrün ən gözəl dövrü gənclik dövrüdür, onu maraqlı və faydalı keçirtmək isə o gəncliyin seçimidir”**

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilməsi ən vacib islahatlardan biridir. Xüsusilə bu məsələdə ”Bədən tərbiyəsi və idman haqqında”, ”Gənclər siyasəti haqqında”, habelə ”Gənc ailə” kimi proqramların, ”Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında”, ”İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı”, ”Ordudan tərxis olunmuş gənclərin məşğulluğu” Dövlət Proqramlarının işlək mexanizm əsasında icrasına böyük ehtiyac var.

Hazırda ölkəmizdə gənclər siyasətinin geniş planda həyata keçirilməsinə böyük ehtiyac var. Çünki Azərbaycan əhalisinin 31%-i gənclərdir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Gənclər də dövlət qayğısını daim öz üzərlərində hiss etməli və əvəzində də nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışmalıdır.

Əvvəlcədən onu bildirim ki, bu yazıda söhbət zahiri aləmi kimi daxili aləmi də çox gözəl olan məktəbin əlaçı şagirdi olan Günəş balamızdan söhbət gedir. Hələ orta məktəbdə oxuyan və gənclik duyğuları ilə aşıb-daşan Günəş balamız əqli və fərasəti ilə öz həmyaşıdlarından fərqlənir. İndi isə keçid alaq onun tərcümeyi halına.

Novruzzadə Günəş Namiq qızı 6 fevral 2009-cu ildə Kürdəmir rayonunun Xırdapay kəndində anadan olub. 2015-ci ildə Kürdəmir rayon M.Ə.Rəsulzadə adına 2 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hazırda həmin məktəbin $4^{g}$ sinifində oxuyur. Artıq Günəşin ibtidai sinfi bitirməyinə saylı günlər qalıb. 4 ildə dərslərə məsuliyyətli olmağı və çalışqanlığı ilə müəllimlərinin diqqətində olmuşdur. Ən sevimli fənni riyaziyyatdır. Elmlərin şahı olan riyaziyyatı ona sevdirən Elnurə müəllimin onun qəlbində xüsusi yeri var. Elnurə müəllim həm də sinif müəllimidir. Bir müəllim ki, şagirdlərinin yaxşı oxuması gələcəyin ali təhsilli gəncləri olması üçün əlindən gələni edir. Məhz Elnurə müəllimin fəallığı zəhməti sayəsində Günəş uğurlu addımlarını atmaqdadır. Uğurlarına gəldikdə isə həmsöhbətimiz bildirib ki, ”Zirvə” ”Güvən” və ”Dərya” adlı kurslarının təşkil etdiyi sınaq imtahanlarında iştirak edir və hər dəfə də yüksək nəticələr əldə edir. Asudə vaxtlarında müxtəlif maraqlı kitablar oxuyur və fiziki yorğunluğunu aradan qaldırmaq üçün idmanla məşğul









Birdanə, Şirinova Tünzalə, Şirinli Anarə, Novruzova Vüsalə müəllimlərini çox sevir. Həmsöhbətimiz artıq öz seçimini edib. Belə ki, o gələcəkdə sənətlərin şahı hesab olunan müəllim olmaq istəyir. Atasından müsahibə alarkən məlum oldu ki, Yenigül hələ bağça yaşlarından etibarən qarşısına əsas məqsəd olaraq müəllim olmağı, xüsusilə ibtidai sinif müəllimi olmağı seçib. Bir müəllim kimi bildiklərini vətəninin övladlarına öyrətməyi, onları maarifləndirməyi şərəf bilir özünə. Yenigül, sinif üzrə imtahanlarda iştirak etməklə iki dəfə 1-ci yerə çıxıb, diploma mükafatlandırılıb. Boş vaxtlarında kitab oxumağı, musiqi dinləməyi çox sevir.

Yenigülün ailəsi 5 nəfərdən ibarətdir. Atası 47 yaşlı Abdullayev Sülfəddin Məhəmməd oğlu, orta təhsilli, ustadır. Halal zəhməti ilə ailəsini, övladlarını saxlayır. Anası 38 yaşlı Abdullayeva Samirə Vaqif qızı orta təhsilli, evdar qadındır. Bacısı Abdullayeva Zivər, qardaşı Abdullayev Sübhan məktəblidirlər. Müsahibimizin ən böyük idealı məşhur türk aktyoru Tolqa Sarıtaşdır. Hər iki valideyn onun parlaq gələcəyi üçün çalışır.

Biz də redaksiya heyəti adından Yenigülə can sağlığı, xoşbəxtlik, təhsildə və həyatda uğur arzu edirik. Daim uğur və nailiyyətləri ilə doğmalarının, müəllimlərinin fəxri olsun.








# ABDULLAYEVA YENİGÜL

## "Uşaqlıqdan müəllim olmaq istəyən əlaçı məktəbli"







**"Haqqı hər zaman müdafiə et, anlayan olmasa belə vicdanına hesab verməkdən xilas olarsan"**

***(Herbert Uils)***

Uşaqlıq illəri ömrün ən qəmsiz, qüssəsiz, təmiz dövrüdür. Hər kəs uşaqlıq illərində qarşısına məqsəd qoyub onun üzərində dərindən düşünməlidir. Öz həyat amalını özü müəyyən etməlidir. Yenigül də hər bir uşaq kimi gələcəyini qurmağa çalışır, valideynlərinin və müəllimlərinin sevimlisi olduğu üçün qürur duyur.

Yenigül Abdullayeva Sülfəddin qızı 2005-ci il sentyabrın 6-da Saatlı rayonunun Qıraqlı kəndində anadan olub. Yenigül uşaqlıqdan açıq havada oynamağı, təbiət qoynunda istirahət etməyi çox sevir və təmiz havada olmağı sağlamlığın qeydinə qalmaq kimi xarakterizə edir.

2011-ci ildə Alı Mustafayev adına Qıraqlı kənd tam orta məktəbində 1-ci sinfə gedən Yenigül hər bir şagird kimi ömrünün bu illəri üçün çox darıxıb, bu illəri üçün çalışır. Hal-hazırda həmin məktəbin 8-ci sinfində təhsilini davam etdirir. Dərslərində çox fəal olan Yenigül əlaçıdır. O, Azərbaycan dili, coğrafiya, tarix fənlərini çox sevir. Müəllimlərdən isə Məmmədli








olur. Hobbisi musiqiylə məşğul olmaq xüsusi ilə də pianino ifa etməkdir. Həyatda idealı bibisidir. Onun kimi savadlı və çalışqan olmaq istəyir. Ən böyük arzusu gələcəkdə peşəkar müəllim olmaqdır. Müəllimi Elnurə müəllimin yolunu getməyi və gələcək nəsillərə öz peşə töhfələrini vermək istəyir. Günəşə görə müəllimlik bütün peşələrdən ən ali olanıdır. Çünki dahi şəxsiyyətlər, tarixçilər, həkimlər və digər sahə mütəxəssisləri müəllimin yetirmələridir.

Evin tək qızı, göz nuru olan Günəşin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Novruzov Namiq Eynulla oğlu 1984-cü ildə Kürdəmir rayonunda anadan olub. Ali təhsillidir. Hazırda Əmək və Əhalinin Sosial Müdafiə Fondunun Kürdəmir rayon pensiya şöbəsində məsləhətçi işləyir.

Anası Novruzova Xəyalə ali təhsillidir. Hazırda Əmək və Əhalinin Sosial Müdafiə Fondunda tibbi sosial ekspert komissiyasında tibb qeydiyyatçısı vəzifəsində işləyir.

Hər iki valideyn övladlarının xoşbəxt və xeyirli tale sahibi olmasını istəyir.

Qardaşı Novruzzadə Zamiq Namiq oğlu 2 sentyabr 2006-cı ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 7-ci sinifdə oxuyur. Böyük qardaş olaraq daim bacısının dərsləri ilə yaxından maraqlanır və çətinlik çəkəndə köməklik edir.

Biz də Günəş balamıza sonsuz müvəffəqiyyətlər diləyirik. Həyat yolunun günəş tək parlamasını arzulayırıq. Uğurları, nailiyyətləri ilə hər zaman sevdiklərinin başını uca eləsin!







# Cəbrayılov Mövsüm

## "Zəhmətkeş ailənin əlaçı övladı"





**"Alim bank xəzinədarına oxşayır: onun əlində böyük xəzinələrin açarı var, amma bu xəzinələr onun deyil"**

***(L.Berne)***

Ağıllı adamların çox olduğu ölkəni ədalətsiz qərarlarla ram və istismar etmək çətin olur. Amma savadlı, təhsilli, elmli cəmiyyəti zülm və səfalət təsiri altında saxlamağa ehtiyac da olmur. Çünki onlar cəmiyyəti və dövlətin özünü də inkişaf etdirirlər. Azad insanların yaşadığı dövlət də daim azad və qüdrətli olacaq. Elmsiz insan azad sayılmaz və ya onun həyatı ali dərəcəyə yüksəlməz. Adi həyat sürən zəkasız insanların çoxluğu qeyd etdiyimiz kimi, cəmiyyəti çürüdə, durğunluğa məruz qoya və dağıda bilər. Gələcəyimizi savadlı gənclik ətrafında qurmalı və möhkəmləndirməliyik. Savadlı, yetişkin, ağıllı məktəblilərdən biri də Mövsümdür.

Cəbrayılov Mövsüm Babaqulu oğlu 2003-cü ilin 31 dekabrında Şirvan şəhərində mühəndis ailəsində çox külfətli bir ailədə anadan olub. Mövsüm 4 bacının bir qardaşıdır. Yəni onun dünayaya gəlişi bütöv bir ailənin sevincinə səbəb olub, illərlə gözlənən bir oğul övladı həsrətinə son qoyulması ilə nəticələnib. O, 2010-cu ildə Sabirabad rayon Ağaşirin Mikayılov adına Zal Qarağac kənd tam orta məktəbinin 1-ci sinfinə gedərək illərlə ürəyində böyüdərək saxladığı məktəb sevdası arzusuna qovuşur. Onun doğumu ilə bərabər, məktəbə qoyduğu ilk qədəmləri də doğmalarını çox sevindirib. Mövsüm hazırda həmin məktəbin 9-cu sinif şagirdidir. Ən sevimli müəllimi Gülvari müəllimdir, kimya və informatika ən çox sevdiyi dərslərdir. O, bu fənləri sevərək oxuyur və müəlliminə də məhz maraqlı, savadlı tədris metoduna görə xüsusi rəğbət bəsləyir. Bu da səbəbsiz deyil. Çünki Mövsüm birinci sinifdən etibarən 9-cu







ləsi barədə qısa məlumat verək.

Ailə başçısı İmanov Mənsur 1980-ci il dekabrın 31-də anadan olub, orta ixtisas təhsilli, ticarətlə məşğuldur. Ayselin anası İmanova Gülsarə 1983-cü il avqustun 10-da anadan olub, orta təhsilli, evdar xanımdır. Hər iki valideynin həm Aysellə. həm də Tapdıqla bağlı tək istəyi onların sağlam və xeyirli övlad olmasıdır. Buna görə onların tərbiyəli və təhsilli olması şərtdir ki, valideynlər çalışır onların təhsil və tərbiyəsinə ciddi diqqət yetirib qayğılarına qalsınlar. Ayselin bir qardaşı da var. Onun adı Tapdıqdır. O,məktəblidir, 5-ci sinifdə oxuyur. Aysel qardaşı ilə çox mehribandır. Ondan yaşca böyük olduğundan daima bildiklərini ona öyrədir, daima çalışır ki, qardaşı ağıllı və savadlı olsun.

Həmsöhbətimizin hobbisi maraqlı faktlar oxumaqdır ki, bu da onun maraq dairəsinin genişliyindən irəli gəlir. Tolga Sarıtaş və Aybüke Pusat adlı məşhur türk aktyorları onun həyatda ideallarıdır.

Son olaraq, dərgimiz adından ağıllı, savadlı, çalışqan qızımıza həyatda uğurlar diləyir, hər zaman atdığı addımların uğurla nəticələnməsini arzu edirik.





# İMANOVA AYSEL

## "Hobbisi maraqlı məlumatlar toplamaq olan kitabsevər"







**Bacarsan, hamının yükünü sən çək,**
**İnsana ən böyük şərəfdir əmək.**
**Sən də əldən düşüb yorulsan əgər,**
**Sənin də yükünü bütün el çəkər.**
***(Nizami Gəncəvi)***

İnsan həyatının ən vacib bəzəyi zəhmətdir. İnsan, həyatını əməklə mənalandırmağa çalışmalıdır. Əmək insanın rifahıdır, onun bütün həyatının və fəaliyyətinin bünövrəsidir. Əmək insana xoşbəxtlik verir, onun qısa ömrünü uzadır. Kimliyindən asılı olmayaraq hamı çalışmalıdır, çünki onun uğuru çalışmağındadır. Əgər əmək biliklə zənginləşərsə demək onun uğuru daha böyük olar. Savadlı insanla cahil insanın fərqi onun təfəkkürü ilə yanaşı, həm də əməyində hiss olunur.

Həmsöhbətimiz Aysel də çalışqan, zəhmətkeş, savadlı məktəblilərdəndir. Gələcəkdə müəllimlik peşəsinə yiyələnmək istəyən qızımız, dərslərini çox yaxşı oxuyur. Hətta keçirilən bilik və sınaq imtahalarından yüksək bal toplayaraq seçilən şagirdlərdən olur.

İmanova Aysel Mənsur qızı 2005-ci ilin 3 avqustunda Saatlı rayonunda dünyaya göz açmışdır. O, 2011-ci ildə məktəbə getmiş, hal-hazırda Alı Mustafayev adına Qıraqlı kənd tam orta məktəbinin VIIIa sinfində təhsilini davam etdirir. Dərslərində aktiv olan qızımız, asudə vaxtlarını kitab oxumaqla həm biliyini, həm də dünyagörüşünü artırmış olur. Bütün fənləri əla qiymətlərlə oxuyan Aysel uğurlu şagirdlərdən biridir. Coğrafiya və biologiya fənlərini sevdiyini deyən Aysel, göründüyü kimi təbiətə bağlıdır. Tünzalə xanım onun sevimli müəllimidir. İndi isə Ayselin ai-







sinfə qədər məktəb əlaçısı, dərslərində fəal şagird olub. Onun ən böyük uğuru isə məhz riyaziyyat fənni ilə bağlı olub. Riyaziyyatı yaxşı bildiyindən bu fənn üzrə keçirilən sinifdaxili yarışmasında bütün şagirdlərdən seçilərək birinci yerə çıxıb. Bundan əlavə, məktəb nəzdində keçirilən bilik yarışmalarında, sınaq imtahanlarında aktiv iştirak edərək öz bilik və bacarıqlarını göstərib. Mövsüm bala dərslərini bitirdikdən sonra asudə vaxtlarında evdə, həyətlərində atasına kənd təsərrüfatı işlərində yardımçı olur, dostları ilə birgə futbol oynayır, gəzintiyə çıxaraq vaxtını səmərələşdirir. Mövsüm gələcəkdə Polis Akademiyasını bitirib polis olmaq istəyir. Bu, onun ən çox nail olmaq istədiyi peşə arzusudur. Onun ailəsi 7 nəfərdən ibarətdir. Mövsüm hər zaman çalışır ki, ailəsinin başını uca edib onları xeyir sədaları, xoş xəbərləri ilə sevindirsin. Elə ailəsinin, valideynlərinin də arzusu da budur. Mövsümun parlaq bir gələcəyə, xoşbəxt bir taleyə sahib olması...

Mövsümün zəhmətkeş atası Babaqulu Cəbrayılov 1962-ci il martın 1-də anadan olub. Ali təhsilli mühəndisdir, hazırda isə kənd təsərrüfatı işi ilə məşğuldur. O, halal zəhməti ilə çalışır ki, ailəsinə layiqli ailə başçısı, övladlarına isə layiqli ata olsun. Mətin iradə, halal zəhmət və sağlam əqidə sahibi olan Babaqulu bəy övladları üçün həmişə arxa-dayaq, həmişə ilham mənbəyi olub. Bir ata kimi çalışır ki, övladları xoşbəxt olub onu sevindirsin. Oğlu Mövsümü ilə bağlı ən böyük arzusu oxuyub ali təhsilli peşəkar bir kadr olmasıdır, cəmiyyətə yararlı bir şəxs kimi böyüməsidir.

Mövsümün anası Şahinzər Cəbrayılov 1973-cü il iyunun 1-də anadan olub, orta təhsilli, evdar qadındır. Mövsüm deyir ki, ona hər zaman kömək olan əsas şəxs məhz anasıdır. O da anasını çox sevir və onun övladları ilə bağlı bütün çaba və zəhmətini yüksək qiymətləndirir. Şahinzər ananın ən böyük istəyi övladlarının xoşbəxt olması və cəmiyyətə faydalı şəxs olmalarıdır. Mövsümün 4 bacısı var. Onlar 27 yaşlı Aygül, 26 yaşlı Aytən, 24 yaşlı Əfsanə adlı 3 böyük bacıları ailəlidir, ən kiçik bacısı 22 yaşlı Aytac isə nişanlıdır, qırmızı diplomlu kollec tələbəsidir. Bacılar üçün qardaş əziz və çox istəkli olur. 4 bacının bir qardaşı kimi Mövsüm də bacılarının sevimlisi və birdənəsədir. Onlar çox istəyirlər ki, qardaşları ali təhsil alıb oxuyaraq cəmiyyətinə, ailəsinə faydalı şəxs olsun. 4 bacının baş tacı, inam-ümid yeri olsun.

Biz də jurnal əməkdaşları adından Mövsümə hər sahədə uğur arzu edib, gələcək həyatında böyük nailiyyətlər diləyirik, hər zaman xoş sədaları ilə valideynlərinin, müəllimlərinin sevimlisi, fəxri olsun.

# GÜLÖVŞƏ ABDULLAYEVA

## "Atasını özünə ideal seçən istedadlı və alaçı şagird"







**"Əmək yaradıcı insanın qüdrət və sevincidir"**

***(R.Rollan)***

Hər bir gənc işlədiyi sahədə uğur qazanmağı arzulayır. Bunun üçün də ilk növbədə, orta məktəbdən başlamaq lazımdır ki, seçdiyin sənəti mükəmməl biləsən. Bunun üçün isə savadlı və yüksək təhsilli olasan. Təhsillə başlanan həyat oxumaq, öyrənməklə bir ömür davam etməlidir ki, insan həyatı və yaşamı qavramaqda əziyyət çəkməsin və əslində onu dərk etsin. Elə bu qənaətdə olan jurnalımızın növbəti istedadlı və seçilən şagirdlərindən biri də Gülövşə Abdullayevadır. O da gələcəyini fikirləşən, gələcəkdə görkəmli şəxsiyyət olmaq arzusunda olan məktəblilərdəndir.

Gülövşə Emin qızı Abdullayeva 2008-ci il oktyabrın 12-də Saatlı rayonunun Qıraqlı kəndində sadə, zəhmətkeş bir ailədə doğulub. 2015-ci ildə Alı Mustafayev adına Qıraqlı kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olunub. Hal-hazırda, həmin məktəbin IVa sinfində təhsil alır. Ən sevdiyi dərs ingilis dili, ən sevdiyi müəllim isə həmin fənni tədris edən Anarə müəllimdir. Atasının verdiyi məlumata görə Gülövşənin ən böyük arzularından biri də məhz ingilis dilində sərbəst danışmaq və bu dildən istifadə etməklə dünyada gedən prosesləri izləməkdir. Gələcəkdə həkimlik sənətinə yiyələnmək istəyən Gülövşə, bütün xəstələrə şəfa vermək arzusundadır. Gülövşənin doğma ana dilinə və riyaziyyata da xüsusi marağı var. Hər fənni yaxşı oxuyur, demək olar ki, bütün qiymətləri əladır. Məktəb nəzdində təşkil olunan tədbir və yarışlarda aktiv iştirak edir. Məktəbin təşkil etdiyi bilik yarışmalarında da iştirak edərək hətta "Fəxri Fərman" a layiq görülüb. Xüsusilə rəqs etmə qabiliyyət və bacarığı olan Gülövşə daima rəqs məşğələlərində həvəskar kimi hazırlaşır və gözəl də rəqs edə bilir. Atası ilə həmsöhbət olarkən qızı haqqında bildirdi ki, boş zamanlarında Gülövşə daima kitab oxuyur və rəqs edir. Onun rəqsə çox marağı və istəyi var. İstəyir ki, qarşıdakı illərdə rəqs məktəbinə getməklə bu istedad və bacarığını daha yüksək səviyyədə püxtələşdirsin. İstedadı bununla yetinməyən Gülövşənin bir marağı da kitab oxumaqla









geniş məzmunlu məqalələrə görə məktəb rəhbərliyi tərəfindən dipolmlarla təltif edilir. Rüfanə həmçinin məktəbdə ilin ən yaxşı şagirdi adını alıb. Gələcəkdə ən böyük arzusu hüquqşünas olmaq olan Rüfanə bu arzusuna çatmaq üçün gecə-gündüz yorulmadan elmlə məşğul olur. Rüfanə bildirib ki, cəmiyyətdə haqqın, ədalətin bərqərar olması mənə xüsusi zövq verir. Haqq ki, yerini tapır onda mən daha çox sevinirəm. Elə bu sahəni də ona görə seçmişəm. Gələcəkdə uğur qazanmaq üçün ilk növbədə tələbkar məqsədyönlü olmalı, çox əziyyət çəkməlisən. Qətiyyətli olmağı həyatda nə istədiyini bilməlisən. Asudə vaxtlarını fərqli istedadını üzə çıxarmaq üçün rəsm çəkməklə məşğul olur. Təbiət vətənpərvərlik haqqında çəkdiyi şəkilləri gördükdə onun necə bir yaradıcı ruha malik olduğunu görmüş olduq. Bundan əlavə boş vaxtlarını nağıllar kitabı oxumaqla, musiqiyə qulaq asmaqla və telefonda oyunlar oynamaqla keçirir. Həyatda idealı öz qonşusu olan Qoşqardı. Qoşqar yüksək bal toplayıb Tibb Universitetində oxuyur. Rüfanə də onun kimi savadlı olmağı gələcəkin peşəkar mütəxəssislərindən olmağı arzulayır. Evin ilk göz nuru olan Rüfanəyi valideynləri çox sevir. Onun gələcəyinin parlaq xalqına ölkəsinə layiqli bir gənc olması üçün əlindən gələni əsirgəmirlər. Rüfanəgil ailədə 3 nəfərdilər.

Atası Musayev Seymur Səyavuş oğlu 5 mart 1979-cu ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda Fövqaladə Hallar Nazirliyində yanğın söndürən xidmətində xilasedici sürücü işləyir.

Anası Musayeva Solmaz Əliş qızı 1 dekabr 1979-cu ildə Kürdəmir rayonunda anadan olub. Ali təhsillidir. Hazırda T.İsmayılov adına 1 saylı tam orta məktəbdə ibtidai sinif müəllimi işləyir. Bir ana , müəllim kimi uşaqlarının yaxşı təhsil alması üçün əlindən gələni edir. Hər iki valideynin bütün istəkləri övladları ilə bağlıdır ki, onlar övladlarının xoşbəxt və uğurlu olmasını arzulayır.

Rüfanənin özündən kiçik balaca bacısı var. Musazadə Leyla Seymur qızı 28 may 2018-ci ildə Kürdəmir rayonunda anadan olub. O, bacısını çox sevir və daim onun qayğısına qalır.

Redaksiya heyətimiz adından Rüfanəyə uğur dolu bir gələcək arzulayırıq. Ona gələcək həyatında və işlərində uğurlar diləyirik. Daim müəllimlərinin və valideynlərinin fəxri olsun.



# MUSAYEVA RÜFANƏ

## "İlin ən yaxşı şagirdi adını almış məktəbli"





**"Gənclik ona görə xoşbəxtdir ki onun gələcəyi var"**
***(N.V.Qoqo)***

Yaşamaq üçün lazım olan vasitələr ilə yüksək təmin edilmiş cəmiyyət inkişaf etmiş sayılır. Bu amillərdən vacib olanlardan biri əlbəttə ki, təhsildir. İnsanlar yaşadıqları cəmiyyətdə arzuladıqları mövqeni tutmaq üçün təhsilə önəm verməli və daim özlərini inkişaf etdirməlidir. Bu inkişafın təməli də orta məktəbdə atılır. Hər kəs ilk biliklərə yiyələnmək üçün məktəbə qədəm qoyur. Orada şagirdlər həm ilk kollektivləri ilə birlikdə insanlar arasındakı əsas münasibətlər ilə tanış olurlar, həm də müəllimləri sayəsində ilk biliklərə yiyələnərək elm şərbətindən ilk qurtumlarını almağa başlayırlar. Düzgün istiqamətləndirilən hər bir tələbə öz gələcək həyat planını cızaraq özü üçün ən düzgün istiqamətdə irəliləyir, peşə sahibi olur, öz gələcəyini inamlı addımlar ilə qurur. Özünə və ailəsinə faydalı bir şəxs olur.

Gələcəyini parlaq qurmaq qarşısına qoyduğu məqsədə çatması üçün əzmlə çalışan şagirdlərimizdən biri Kürdəmir rayon məktəbinin şagirdi olan Musayeva Rüfanə Seymur qızıdır.

Musayeva Rüfanə Seymur qızı 27 yanvar 2007-ci ildə Kürdəmir rayonunda anadan olub. Rüfanə 2013-cü ildə T.İsmayılov adına 1 saylı tam orta məktəbin birinci sinfinə qədəm qoymuşdur. Hazırda həmin məktəbdə 6"b" sinif şagirdidir. İbtidai sinifi 2 ildir ki, bitirən Rüfanə sinfin əlaçı şagirdlərindəndir. Bütün fənləri sevə-sevə oxusa da ən sevimli fənni Azərbaycan dili riyaziyyat və tarixdir. Bu fənləri ona sevdirən Ülviyyə, Süsən, Gülbəniz adlı müəllimlərinin onun qəlbində xüsusi yeri var. Müəllimlərinin əməyini yüksək qiymətləndirən Rüfanə bu peşənin çox məsuliyyətli olduğunu dərk edərək bildirib ki, müəllim hər şeydən vətən üçün, cəmiyyət üçün ən qiymətli kapital olan gənc nəsil yetişdirir. Müəllim fəaliyyətinin başlıca məqsədi və nəticəsi öyrətməkdir. Öyrədən müəllimdən öyrənməyi özünə borc bilən Rüfanə qazandığı biliklərə görə müəllimlərinə xüsusi minnətdarlığını bildirir. Geniş yaradıcı potensiala malik olan Rüfanə balamız rayonlar arası keçirilən imla yarışmalarında hər dəfə iştirak edir və yazdığı


SERTİFİKAT

Kürdəmir rayonu T.İsmayılov adına şəhər 1 saylı orta məktəbin V sinif şagirdi

Musayeva Rüfanəyə

təltif edilir "Nağıl qəhrəmanları ilə görüş" mövzusunda Ən yaxşı esse hazırladığına görə

MÜƏLLİM:Xudiyeva Ülviyyə


FƏXRİ FƏRMAN









bağlıdır. Maraqlıdır ki, kitabxanadan kitab gətirtməklə yanaşı, həm də atasına da çoxlu kitab aldıraraq oxuyur.

Gülövşənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Emin Abdullayev İmaməli oğlu 1987-ci il martın 21-də anadan olub, orta təhsilli, telefon təmiri ustasıdır. Qızının ən yaxın dostudur. Qızı onun göz nuru, baş tacıdır. Anası Abdullayeva Esmira Dadaş qızı 1986-cı il yanvarın 1-də anadan olub, orta təhsilli, evdar qadındır. 3-cü sinifdə oxuyan Mənzurə Abdullayeva adında bir bacısı var, bacısı ilə çox mehriban davranır. Gülövşə boş vaxtlarında kitab oxumağı, rəsm çəkməyi çox sevir. Dərslərində fəal olan Gülövşə "Fəxri Fərman" ilə mükafatlandırılıb. Həyatda ən böyük idealı-atasına bənzəməkdir. O, atasını bir dost, sirdaş olaraq çox istəyir və həddən artıq ona bağlıdır.

Biz də redaksiya heyəti adından Gülövşə qızımıza gələcək planlarının baş tutmasını arzulayır, gələcək həyatının uğurlu olmasını diləyirik. Ən əsası hər zaman öz maraq və istedadının arxasınca getməklə valideynlərindən, xüsusilə atasından dəstək alsın və güvən görsün. Gülövşə də hər zaman valideynlərinin və müəllimlərinin fəxri və qüruru olsun.







# Amil Ağazadə

## "Həm çalışqan, həm ağıllı"





**"Biliyi olub onu işlətməyən, yeri şumlayıb hes nə əkməyən adama bənzəyir"**
***(Ərəb aforizmi)***

Dövlətimiz bizim savadlı, hər tərəfli mütəxəssis kimi yetişdirmək üçün çoxlu işlər görür. Savadlı tələbələrin xaricdə dövlət hesabına təhsil alması-nı, savadının daha da artırılmasını şərait yaradır. Müxtəlif bilik yarışmaları keçirilir ki, bu da biz tələbələrin təhsilə marağını daha da artırır. Lakin gənc tələbələr uğurlu karyerasın qurmaq üçün əzimlə çalışmalı, axtarışlar aparıb, yeniliklər edib bilik səviyyələrini artırmalıdır. Bu zaman atdığımız hər bir addım gələcək iş, karyeramız üçün özül olacaqdır. Nə qədər möhkəm olsa, işlərimizdə də bir o qədər müvəffəqiyyət qazanacağıq. Dil biliklərini də artırıb, möhkəmlətməlidirlər. Jurnalımızın növbəti məqaləsində savadlı şagirdlərdən biri olan Amildən söz açacağıq.

Amil Ağazadə Azər oğlu 2005-ci ildə iyulun 8-i Biləsuvar rayonun Çaylı kəndində anadan olub. O,2011-ci ildə Ə.Hüseynov adına Biləsuvar rayon Çaylı kənd tam orta məktəbində təhsil almağa başlayıb. Bu ağıllı bala indi bu məktəbin 8-ci sinifində oxuyur. Hələ uşaq vaxtlarından oxumağa böyük həvəsi olan Amil, məsuliyyətli bir şagirddir. O,tarix, riyaziyyat, kimya, fizika fənləri-ni çox sevdiyi deyir. Həmçinin bu fənləri oxumaqda ona yaxından kömək edən fənn müəllimləri olan Sakin, Həbib, Vaqif, Müqəddəs və Gülnarə adlı müəllimlərini çox sevdiyini bildirib. Müəllimləri Amilin, məsuliyyətli və savadlı bir şag-






ird olduğunu deyir. O,daha əvvəl keçirilən sınaq imtahanlarından ən yüksək nəticəni toplayaraq, sevdiklərinin və müəllimlərinin rəğbətini qazanmışdır. Bu ağıllı balanın ən böyük arzusu məktəbi yaxşı qiymətlərlə bitirdikdən sonra, polis olmaqdır. Polis- ictimai asayişi qorumaq üzrə dövlət xidməti sistemidir. Müxtəlif ölkələrdə müxtəlif spektrdə vəzifələr yerinə yetirir. Əsas vəzifəsi cinayətkarlıqla mübarizə və yol hərkətinin təşkilidir. Onun üzərinə obyektlərin qorunması, müəyyən sahələrdə inzibati nəzarət, dövlət orqanlarının qərarlarının yerinə yetirilməsi qoyula bilər. Həmçinin müəyyən ölkələrdə yanğın söndürmə və qəzalardan xilasetmə xidməti də polisin tabeliyindədir. Amil də gələcəkdə peşəkar polis olmaq üçün əlindən gələni edəcəyini deyib.

Boş vaxtlarında kitab oxuyan Amil,həmçinin sağlamlığını qorumaq üçün idmanla da aktiv məşğul olur.

Amilin ailəsi 5 nəfərdən ibarətdir. Atası Ağayev Azər Ağakərim oğlu 1975-ci il 10 mart tarixində anadan olub,fərdi təsərrüfatçıdır. Halal zəhməti ilə ailəsini, övladlarını saxlayır. Anası 1981-ci il iyunun 12-i anadan olub, evdar qadındır. Bir ana kimi çalışır ki, övladları sağlam, təhsilli və tərbiyəli olsun. Onun bir bacısı və bir qardaşı var.Qardaşı Ağazadə Şəhruz 19 mart 2007-ci ildə anadan olub,6 -cı sinifdə oxuyur. Bacısı Ağazadə Yağmur 9 iyul 2012-ci ildə anadan olub,1-ci sinifdə oxuyur. Bu mehriban bacı-qardaşlar daim bir-birlərinə dərslərində kömək edir, dostcasına bildiklərini paylaşırlar.

Jurnalımız adından Amilə dərslərində daim uğur arzulayır,gələcəkdə polis olmağını diləyirik. Ümid edirik ki, seçdiyi sənətdən asılı olmayaraq Amil gələcəkdə ağıllı və layiqli status sahibi olar.